QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 066 (5786) **13 aprel** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan ilə Rusiyanı tarixi əlaqələr birləşdirir

*Prezident İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



Səh 2

4

"Məruzələr ölkələrə təzyiq göstərmək üçün siyasi vasitəyə çevrilir"



7

"Azərbaycan və Böyük Britaniya əməkdaşlığının 100 illiyi" kitabının təqdimatı olub



11

YAP Səbail GB-nın V Hesabat-seçki konfransı keçirilib



# Azərbaycan ilə Rusiyanı tarixi əlaqələr birləşdirir

## *Prezident İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*





### *Rəsmi xronika*

Prezident İlham Əliyev Valentina Matviyenkonun "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama görə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Valentina İvanovna Matviyenko "Dostluq" ordeni ilə təltif edilir.

* * *

Prezident İlham Əliyev Astara rayonunun Diqo, Dolu və Sekaşan kəndlərinin elektrik enerjisi ilə təchizatı haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Sosial Tədqiqatlar Mərkəzinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli 1890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında Sərəncam imzalayıb.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, xanım Valentina Matviyenkonu və nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev dedi:

-Hörmətli Valentina İvanovna, hörmətli qonaqlar.

Azərbaycana xoş gəlmisiniz. Sizin səfərinizə çox şadam. Siz Azərbaycana belə geniştərkibli nümayəndə heyəti ilə gəlmisiniz. İlk növbədə, Sizi bu yaxınlarda qeyd edilən yubileyiniz münasibətilə şəxsən təbrik etmək istərdim. Mən Sizə təbrik məktubu göndərmişdim və bir daha şəxsən təbrik etmək, ən xoş arzularımı bildirmək və işinizdə uğurlar arzulamaq istərdim. Əlbəttə, biz çox şadıq ki, yubileydən az sonra Siz bizim ölkəmizi ziyarət edirsiniz. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Əminəm ki, bu, ölkələrimiz arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsinə təkan verəcək. Əlaqələr çoxplanlıdır, həyatın demək olar ki, bütün sahələrini əhatə edir və yaxşı dinamikaya malikdir. Biz siyasi sahədə fəal qarşılıqlı fəaliyyət göstəririk, iqtisadi potensialı artırırıq, uğurla həyata keçirilən iqtisadi, nəqliyyat, energetika sahələrində əməkdaşlıq üzrə bir neçə yol xəritəsi mövcuddur. Təsadüfi deyil ki, hər iki tərəf ölkələrimiz arasında münasibətləri strateji tərəfdaşlıq münasibətləri kimi dəyərləndirir.

İkitərəfli münasibətlərin inkişafında humanitar sahənin xüsusi əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev bu işdə Bakı Humanitar Forumunun rolunu qeyd etdi, təhsil, mədəniyyət, elm sahələrində sıx əlaqələrin mövcud olmasından məmnunluğunu bildirdi. Dövlətimizin başçısı Şimal-Cənub dəhlizi ilə bağlı birgə fəaliyyətin də iqtisadi əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını dedi. Prezident İlham Əliyev, eyni zamanda, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin inkişafına töhfə verdiyini vurğuladı. Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini bildirdi.

x x x

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko:

- Çox sağ olun, çox hörmətli cənab Prezident.

İlk növbədə, bizim nümayəndə heyətini qəbul etdiyinizə, parlamentlərarası əməkdaşlığa göstərdiyiniz diqqət və dəstəyə görə səmimi qəlbdən Sizə təşəkkür etmək istəyirəm. Biz sizin gözəl ölkənizdə həmişəki kimi diqqət, qonaqpərvərlik, qayğı ilə əhatə olunmuşuq. Əminəm ki, nümayəndə heyətinin bütün üzvləri üçün, - onların əksəriyyəti ilk dəfədir ki, Azərbaycandadır, - bu səfər yaddaqalan olacaq. İlk növbədə, demək istəyirəm ki, səfərdən əvvəl mən Vladimir Vladimiroviç Putinlə görüşdüm. O, xahiş etdi ki, böyük salamlarını, ən xoş arzularını Sizə çatdırım. O, bir qədər əvvəl - aprelin 2-də Sizinlə olan telefon söhbətini də xatırladı. Bu sözləri Sizə məmnunluqla çatdırıram.

**Ardı Səh. 3**

# Azərbaycan ilə Rusiyanı tarixi əlaqələr birləşdirir

## *Prezident İlham Əliyev Rusiya Federal Məclisi Federasiya Şurasının sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*





**Əvvəli-Səh-2**

Prezident İlham Əliyev: Mənim də ən xoş arzularımı və böyük salamlarımı Vladimir Vladimiroviçə çatdırın.

Xanım Valentina Matviyenko:

-Sağ olun. Mən salamlarınızı mütləq çatdıracağam. Çox hörmətli İlham Heydəroğlu, Sizinlə şəxsən görüşməkdən çox məmnunam. Həmişə bu görüşləri xatırlayıram. Bakının necə inkişaf etməsinə heyran qaldığımı növbəti dəfə bildirməyə bilmərəm. Mən Bakıda, Azərbaycanda 5 il idi ki, olmamışdım. Çox böyük dəyişiklər var - heyrətamiz, yeni binalar, nadir memarlıq nümunələri. Bilirsiniz, düşünürəm ki, əgər Heydər Əliyev sağ olsaydı, Azərbaycanda baş verən bu dəyişikliklərlə çox fəxr edərdi. Həqiqətən də mən çox yerlərdə, dünyanın bir çox ölkələrində olmuşam, bu cür dinamik, düşünülmüş inkişafa, belə gözəlliyə çox az yerdə rast gəlinir. Bizim səfər əlamətdar vaxta təsadüf edir. Düz bir il əvvəl Siz prezident seçkilərində inamlı qələbə qazandınız. Azərbaycan vətəndaşlarının mütləq əksəriyyəti Sizə, Sizin daxili və xarici siyasi kursunuza güclü dəstək verdi. Bu qələbə həqiqətən olduqca layiqli və inamlı idi. Siz artıq qeyd etdiniz ki, Rusiya-Azərbaycan münasibətləri bütün sahələrdə dinamik inkişaf edir, strateji tərəfdaşlıq səviyyəsinə qalxıb. Bu əlaqələrin, bu kursun bünövrəsini çox hörmətli Heydər Əliyev qoyub. Əlbəttə, Rusiya-Azərbaycan münasibətlərində həlledici rol bizim ölkələrin liderlərinə, prezidentlərinə məxsusdur. Bilirik ki, Sizin ölkənizlə əməkdaşlığın genişləndirilməsinə böyük maraq var, çünki Sizin ölkədə sabitlik var, siyasi, sosial sabit vəziyyət, ölkənin iqtisadi inkişafının yaxşı dinamikası mövcuddur.

Turizm sahəsində iki ölkə arasında əlaqələrin inkişafına toxunan Valentina Matviyenko dedi:

-Bizim əməkdaşlığımızın yaxşı ab-havasının əlaməti odur ki, Rusiyadan Azərbaycana gələn turistlərin axını əhəmiyyətli dərəcədə artıb. Ötən il 800 min rusiyalı gəlib. Düşünürəm ki, bu rəqəm ildən-ilə artacaq.

Valentina Matviyenko Azərbaycanda rus dilinə olan münasibətlə bağlı bildirdi:

-Rus dilinə, mədəniyyətinə olan münasibətə, Azərbaycanda rus dilinin qorunub saxlanmasına yaradılan şəraitə görə Sizə dərin təşəkkürümü bildirirəm.

Valentina Matviyenko iki ölkə arasında humanitar, mədəni, informasiya, təhsil sahələrində əlaqələrin uğurla inkişaf etdiyini bildirdi, tələbə mübadiləsi proqramının reallışdırıldığını vurğuladı, ölkəmizdə Rusiya Mədəniyyəti Günlərinin keçirilməsinin önəminə toxundu. Qonaq ölkələrimiz arasında humanitar əlaqələrin inkişafına Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da böyük töhfə verdiyini qeyd edərək dedi:

-Humanitar əməkdaşlığın inkişafına Azərbaycanın Birinci vitse-prezidenti, çox hörmətli Mehriban xanımın töhfəsini biz çox yüksək qiymətləndiririk.

Valentina Matviyenko Bakı Humanitar Forumunun sivilizasiyalararası dialoqun genişləndirilməsində roluna da toxundu.

Parlamentlərarası münasibətlərdən danışan qonaq bu əlaqələrin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Sonra Prezident İlham Əliyev Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkoya Azərbaycanın "Dostluq" ordenini təqdim etdi.

Valentina Matviyenko Azərbaycan ilə Rusiya arasında əməkdaşlıq və qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə dövlətimizin başçısının Sərəncamı ilə bu ordenlə təltif olunub.

Azərbaycanın "Dostluq" ordeninə layiq görüldüyündən və bu ordeni Prezident Ilham Əliyevin ona təqdim etməsindən böyük şərəf duyduğunu deyən Valentina Matviyenko qeyd etdi ki, özü və Rusiya parlamentariləri bundan sonra da ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi işində səylərini əsirgəməyəcəklər. Dövlətimizin başçısı Valentina Matviyenkonun Azərbaycan-Rusiya əlaqələrinin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirdi, ona gələcək fəaliyyətində yeni-yeni uğurlar arzuladı. Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan-Rusiya əlaqələri sürətlə inkişaf edir

## *Birinci vitse-prezident Mehriban Əliyeva Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb*





Aprelin 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkəmizdə rəsmi səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonu Azərbaycanda səmimi qəlbdən salamlayaraq, onun ölkəmizdə hər zaman arzuedilən qonaq olduğunu dedi. Mehriban Əliyeva rusiyalı qonağı yubileyi və təltif edildiyi mükafatlar münasibətilə təbrik etdi, Valentina Matviyenkoya möhkəm cansağlığı, gələcək fəaliyyətində yeni nailiyyətlər arzuladı. Birinci vitse-prezident Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin gördüyü işlərin əhəmiyyətini xüsusi vurğuladı, bu fəaliyyətin Azərbaycan ilə Rusiya arasında dostluq əlaqələrinin daha da möhkəmlənməsinə mühüm töhfə olduğunu dedi.

Azərbaycanda yenidən olmaqdan məmnunluğunu ifadə edən Valentina Matviyenko, ölkəmizə həmişə xoş niyyətlə gəldiyini söylədi. Qonaq Azərbaycanda göstərilən qonaqpərvərliyə və diqqətə görə minnətdarlığını bildirdi. Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşdüyünü, bu görüşün onun üçün böyük şərəf olduğunu bildirdi. Qonaq Prezident İlham Əliyev ilə Azərbaycan-Rusiya əlaqələrinin gələcək inkişafına dair fikir mübadiləsinin aparıldığını qeyd etdi.

# Səməd Seyidov: "Məruzələr ölkələrə təzyiq göstərmək üçün siyasi vasitəyə çevrilir"

***Məruzəçiyə ikiqat təşəkkür etmək istərdim. Birincisi, bütün ölkələri, xüsusilə də Avropa Şurasına üzv olan ölkələri əhatə edən cinayətkarlıq, çirkli pulların yuyulması, qeyri-qanuni iqtisadi fəaliyyətlərə qarşı mübarizə aparmaq kimi vacib məsələ ilə bağlı məruzə hazırlayıb.***

İkinci təşəkkürüm isə məruzənin tərtibatına görədir. Cinayətkarlığa qarşı mübarizə elə təqdim olunub ki, onu siyasiləşdirmək, ona siyasi don geyindirərək ölkələrə qarşı təzyiq vasitəsi kimi istifadə etmək mümkünlüyü verilib.

Bu fikirləri AŞPA-nın yaz sessiyasında hollandiyalı deputat Mart van de Veninin hazırladığı "Landromat - mütəşəkkil cinayətkarlıq, korrupsiya və çirkli pulların yuyulmasına qarşı beynəlxalq mübarizədə yeni çağırışlara münasibət" adlı məruzə ilə bağlı çıxışında Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidov söyləyib. O, məruzənin vacibliyini qeyd edərək, onun siyasiləşdirilməsinə təəssüfünü bildirib. Qeyd edib ki, bu gün bütün ölkələr bir-biri ilə əlaqədədir. "Landromat" mexanizmi Avropada kəşf edilib, Estoniyada yaradılıb və müxtəlif ölkələrdə tətbiq olunub. Bu problemin əsil səbəbi onu icad edib yaradanlardadır. Bu baxımdan bu problemlə bağlı təkcə bu məruzədə adı çəkilən ölkələrdə deyil, məhz digər "korekt" üzv ölkələrdə də araşdırılmalıdır. Yalnız belə halda bu məruzə obyektiv ola bilər və bu cür cinayətkarlara qarşı ədalətli mübarizə apara bilərik.



"Təəssüflər olsun ki, bu təşkilatda bəziləri bir çox böyük dövlətlərin adını səsləndirməkdən çəkinirlər, çünki qorxurlar. Böyük dövlətlərdə belə araşdırmalar apara bilməzlər. Avropa İttifaqının bəzi ölkələrində belə araşdırmalar aparmağa cürət etmirlər. Məhz buna görə də, bu məruzə tənqid olunur. Çünki qorxu əsasında yazılmış məruzə obyektiv ola bilməz. Heç kim, heç bir ölkə mükəmməl deyil. Ancaq barmağı bir ölkəyə tuşlayıb, onun üzərində durmaq mənfi nəticələrə səbəb olaraq, təşkilatı daha dərin böhranlara sürükləyəcək", - deyə S.Seyidov diqqətə çatdırıb və deputatları obyektiv olmağa çağırıb.

## XİN: Nikol Paşinyanın tez-tez bəyan etdiyi "sülh mühitinin yaradılması" azərbaycanlı məcburi köçkünlər geri qayıtmadan mümkün deyil



Ermənistanın baş naziri Nikol Paşinyanın münaqişənin həlli kontekstində tez-tez bəyan etdiyi "sülh mühitinin yaradılması" Ermənistan işğalçı qüvvələri Azərbaycan ərazilərindən geri çəkilmədən və oradan zorla qovulmuş azərbaycanlı məcburi köçkünlər geri qayıtmadan mümkün deyil.

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycanın Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin açıqlamasında yer alıb. Açıqlamada deyilir: "Ermənistan rəhbərliyi bunu aydın şəkildə başa düşməlidir. Əgər "A" deyilirsə, "B" də deyilməlidir. Bunlar ayrılmaz səbəb-nəticə əlaqəsində olan məqamlardır. Bütün bəlaların kökündə duran səbəb məhz Ermənistanın Azərbaycana qarşı yürütdüyü təcavüzkar və işğalçı siyasətidir, nəticələr isə, sülh və qarşılıqlı etimad mühitinin yaradılması da daxil olmaqla yerdə qalan digər məsələlərdir. Bu, bir aksiomdur".

# Türkiyə KİV-ləri Azərbaycan Prezidenti İlham Əliyevin bir ildəki uğurlu fəaliyyəti barədə geniş məlumat yayıb




***Dövlətimizin başçısı İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsinin bir ili ilə bağlı Türkiyənin nüfuzlu KİV-ləri, o cümlədən geniş tamaşaçı auditoriyasına malik televiziya kanalları və xəbər portalları ətraflı məlumatlar yayıb.***




AZƏRTAC xəbər verir ki, məlumatlarda Fransanın nüfuzlu və peşəkar tədqiqat mərkəzlərindən biri olan "Opinion Way" şirkətinin Azərbaycan Prezidentinin son 1 il ərzindəki fəaliyyəti ilə bağlı keçirdiyi rəy sorğusunun nəticələrinə istinad edilib. Bildirilir ki, "Opinion Way" şirkətinin ünvanladığı "Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz" sualına sorğuda iştirak edənlərin 90,5 faizi bütövlükdə müsbət cavab verib.

Anadolu Agentliyi, "Ülke TV", "CNN Türk TV" kanalları, www.yeniakit.com.tr, www.timeturk.com, www.4haber.com, www.tbajansi.com və digər nüfuzlu xəbər saytları türkdilli oxucuların diqqətinə çatdırıb ki, "Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz" sualını respondentlərin 85,1 faizi bütövlükdə yüksək dəyərləndirib.

"Ülke TV" və "CNN Türk TV" kanallarının yaydığı reportajda qeyd olunub ki, 2018-ci il aprelin 11-də Azərbaycanda keçirilən növbədənkənar prezident seçkilərində İlham Əliyev seçicilərin 86,03 faizinin səsini qazanaraq dövlət başçısı seçilib. Reportajda və yazılı məlumatlarda 2003-cü ildə İlham Əliyevin ilk dəfə prezidentliyə namizədliyi ilə Azərbaycanda yaşanan seçki həyəcanından da bəhs olunub. Teleaparıcılar şərhlərində qeyd ediblər ki, Azərbaycan xalqı tərəfindən Prezident İlham Əliyev ölkədə verdiyi vədləri yerinə yetirən dövlət başçısı imici qazanıb.

Məlumat verilir ki, 2003-cü ildə Azərbaycan xalqının dəstəyini qazanan Prezident İlham Əliyev ölkədə ümumi daxili məhsulun 3,2 dəfə artmasına nail olub. Ötən dövrdə Azərbaycanda 15 min kilometr avtomobil yolu salınıb, ölkə iqtisadiyyatına 250 milyard ABŞ dolları sərmayə yatırılıb, valyuta ehtiyatı 24 dəfə artıb, 2 milyon iş yeri açılıb. Azərbaycan valyuta ehtiyatlarını 45 milyard ABŞ dollarına çatdırıb.

Qeyd olunub ki, ölkədə bütün sahələr üzrə uğurlu islahatlar aparılır. Bunun nəticəsidir ki, Dünya Bankının hesabatına görə, Azərbaycan əvvəlki hesabatla müqayisədə 32 pillə irəliləyərək 25-ci yerdə qərar tutub. Prezident İlham Əliyevin xalqın arasında olması Türkiyə KİV-ləri tərəfindən xüsusilə təqdirəlayiq hal kimi dəyərləndirilib. Bildirilib ki, ölkəni rayon-rayon gəzən Prezident vətəndaşlarla görüşür, insanları dinləyir, onlarla səmimi söhbət edir. Prezident İlham Əliyev şəhid ailələri ilə bir-bir ünsiyyətdə olur, onları dəstəkləyir, problemlərini həll edir.

Məlumatlarda dövlət başçısının illik fəaliyyətinə nəzər yetirilib. Diqqətə çatdırılıb ki, bir il ərzində 118 min yeni iş yeri açılıb. İşsizliyin aradan qaldırılması üçün əsaslı zəmin yaradılıb. İki peykə sahib olan Azərbaycan ötən il üçüncü peykini də orbitə çıxarıb. Reportajda Azərbaycanın ordu quruculuğu sahəsində qazandığı uğurlardan da bəhs edilib. Bildirilir ki, təkcə bir həmlə ilə Naxçıvanın Günnüt kəndi Ermənistanın işğalından azad olunub, 11 min hektar ərazi düşməndən təmizlənib. Son bir ildə görülən işlər sırasında TANAP xəttinin istifadəyə verilməsinə də yer ayrılıb.

Televiziya reportajlarında paytaxt Bakının müasir görkəmini, Azərbaycanın ayrı-ayrı bölgələrini, ölkəmizin füsunkar gözəlliyini, habelə Prezident İlham Əliyevin ictimaiyyət nümayəndələri ilə görüşlərini, beynəlxalq tədbirlərdə iştirakını əks etdirən kadrlardan istifadə olunub.

Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyev Türkiyə KİV-lərinin haqqında ən çox məlumat yaydığı xarici dövlət başçısıdır.

Martın 14-də Azərbaycanın paytaxtında keçirilən VII Qlobal Bakı Forumu və Prezident İlham Əliyevin Forumun açılış mərasimindəki dərin məzmunlu nitqi, dövlətimizin başçısının Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbriki, ölkədə həyata keçiriləcək islahatlar barədə mesajları, eləcə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın aprelin 9-da Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşməsi qardaş ölkənin aparıcı KİV-lərinin diqqət mərkəzində olub. Bütün bu məlumatlar adlarını yuxarıda qeyd etdiyimiz KİV-lərlə yanaşı, nüfuzlu İhlas Xəbər Agentliyinin (İHA) saytında, çoxtirajlı "Hürriyyət", "Yeni akıt", "Yeni Şəfəq" və başqa qəzetlərdə, Türkiyənin Avrasiya Araşdırmalar Mərkəzinin rəsmi saytı www.avim.org.tr, "TRT AVAZ" və digər əsaslı xəbər mənbələrində özünə yer alıb.






# Böyük oftalmoloq alim

***Elm aləmində nadir istedadlı elə şəxsiyyətlər var ki, onların elmə gətirdikləri yenilik və çəkdikləri zəhmətin tam həcmi, zaman və elmi təfəkkür inkişaf edib zənginləşdikcə, aydın dərk edilir. Azərbaycan qadını kimi xeyirxahlıq, ziyalılıq, analıq simvoluna çevrilən akademik Zərifə xanım Əliyevanın həyat yolu və fəaliyyəti kimi. Alimləri sabaha inamla, gələcəyə ümidlə yaşamağa ruhlandıran mənəviyyatca pak və nəcib insan, görkəmli şəxsiyyət olan Zərifə xanımın müqəddəs xatirəsi, ülvi insani keyfiyyətləri, elmi fəaliyyəti, varlığı nur olan təkrarsız bir insan olaraq xatırlanır. Təsadüfi deyildir ki, Onun seçdiyi sənət də, mənalı ömür yolundakı yorulmaz fəaliyyəti də insanlara nur bəxş etmək olub. Bacarıqlı alimin möcüzəli əllərindən süzülən işıq bu gün də şəfa verdiyi insanların gözlərindədir. Kainat qədər geniş qəlbindən və zəkasından çağlayan ilahi nuru Onu tanıyanların mənəvi dünyasına daim nur saçır.***



Zərifə xanım zaman-zaman öyrəniləcək və tədqiq olunacaq məktəbdir. Beynəlxalq aləmdə cəm olunaraq, bir araya gələn alimlərin müzakirə obyektinə çevrilən elmi nailiyyətləri Azərbaycanın səhiyyəsinin dünyaya nüfuz etməsinə gətirib çıxardı. Azərbaycan və Rusiya alimləri arasında əməkdaşlığın təməlini qoyan, oftalmologiya üzrə milli kadrların hazırlanmasında böyük rol oynayan və bütövlükdə, elmin bu sahəsinin inkişafına qiymətli töhfələr verən Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi çoxcəhətli və zəngindir. Gələcək taleyini tibb elminə həsr etməyi qarşısına məqsəd qoyan Zərifə xanım 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olur və institutu əla qiymətlərlə bitirir. Azərbaycanda gözü zədələyən və ağır nəticəyə, hətta tam korluğa səbəb olan traxoma infeksion xəstəliyinin geniş yayıldığı zamanda, ona qarşı təsirli müalicə üsulları yox idi. Belə bir dövrdə Zərifə xanım traxoma xəstəliyinə qarşı aparılan müalicəvi və profilaktik tədbirlərin təşkilində və keçirilməsində fəal iştirak edir, konkret müalicə təcrübəsindən başqa, Azərbaycanda traxoma xəstəliyinin daha geniş yayıldığı rayonlara gedir, həkim-oftalmoloqlara məruzələr oxuyur, əhali arasında çoxlu söhbətlər aparırdı. Azərbaycanda traxomanın kökünün kəsilməsini qarşısına məqsəd qoyan Zərifə xanım bu problemin nə qədər çətin və mürəkkəb olduğunu çox yaxşı bilirdi. Lakin işin çətinliyinə və məsuliyyətinə baxmayaraq, o, tezliklə böyük uğurlar əldə edir. Zərifə Əliyevanın bu istiqamətdə apardığı tədqiqatlar 1960-cı ildə uğurla müdafiə etdiyi "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyanın əsasını təşkil edir. Traxoma xəstəliyinin müayinəsi və müalicəsi işləri ilə yanaşı, Zərifə xanım oftalmologiya elminin bir sıra aktual məsələlərinə də böyük əhəmiyyət verirdi.

1968-ci ildən başlayaraq, Zərifə Əliyeva məqsədyönlü şəkildə görmə orqanının patologiyası ilə məşğul olmağa başladı. Eyni zamanda, O, bir sıra məsələlərə, o cümlədən, yod-sənaye müəssisələrində, neft-kimya sənayesində çalışan şəxslərin görmə orqanlarına təsir edən amillərə əsas diqqət yetirmişdir. Zərifə xanım bu problem üzərində iş apararkən, çox vaxt, bilavasitə sənaye müəssisələrində olmuş, zərərli peşə sahələrində çalışan şəxsləri oftalmoloji müayinədən keçirmişdir. Genişmiqyaslı klinik və təcrübi tədqiqatlar nəticəsində alim zəhərli maddələrin görmə orqanına təsirinin əsas qanunauyğunluğunu aşkara çıxara bilmişdir.

Çoxillik müşahidələrin, klinik tədqiqatların və eksperimentlərin nəticələri Zərifə xanım Əliyevanın doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. Zərifə xanım "Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti" mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində, H.Helmqolts adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdir. Onun dissertasiya işi alim-oftalmoloqların yüksək qiymətini almış, oftalmologiyanın bu sahəsində ilk işlərdən biri olmuşdur. 1977-ci ildə Zərifə Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Elmi tədqiqatların nəticəsi olaraq, Zərifə Əliyeva bir neçə monoqrafiya, o cümlədən, "Şin istehsalında gözün peşə patologiyası", "Yod sənayesində gözün peşə xəstəliyinin profilaktikası" monoqrafiyalarını çap etdirməyə nail oldu. "Xroniki yod intoksikasiyasında oftalmologiya" mövzusunda yazdığı növbəti monoqrafiya 1981-ci ildə işıq üzü gördü. Elə həmin il oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi-tədqiqatlara görə professor Zərifə Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görüldü. Qeyd olunmalıdır ki, professor Zərifə Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun oftalmologiya kafedrasına müdir seçildikdən sonra onun fəaliyyəti daha da genişləndi. Onun daktriologiyadan bəhs edən - "Göz sulanmasının fiziologiyası", "Göz sulanmasının müasir cərrahiyyə üsulları ilə müalicəsi" monoqrafiyaları təkcə oftalmoloqların yox, həm də fizioloqların diqqətini cəlb edir. Zərifə xanım xəstəliyin diaqnostikasının yeni istiqamətdə inkişafını ilk dəfə tədqiq edən alimlərdəndir və bu mövzuya bir sıra elmi məqalələr həsr etmişdir. O, "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərin müəlliflərindən biridir. Zərifə xanım milli oftalmologiyamızın inkişafı üçün çox işlər görmüşdür. Onun arzularından biri də yeni oftalmoloji kompleksin yaradılması olmuşdur. Onun təşəbbüsündən sonra Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə həmin kompleksin tikintisinə başlanılmış və istəyi müasir dövrümüzdə gerçəkləşmişdir.

Böyük xidmətlərinə, çoxillik elmi-tədqiqat işlərinə görə, 1983-cü ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilən Zərifə xanım ömrü boyu böyük ictimai iş aparmış, keçmiş SSRİ-nin Sülhü Müdafiə Komitəsinin üzvü, Azərbaycan Sülhü Müdafiə Komitəsi sədrinin müavini, "Bilik" Cəmiyyəti İdarə Heyətinin üzvü və keçmiş İttifaqın Oftalmoloqları Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü olmuşdur. O, həm də "Oftalmologiya xəbərləri" jurnalının redaksiya heyətinin üzvü idi. Elmi və ictimai fəaliyyəti diqqətdən kənarda qalmamış və dünya oftalmologiya elminin tanınmış simaları Onun haqqında tarixi sözlər demişlər. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunun direktoru, professor Nazim Əfəndiyevin, Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, dövlət mükafatı laureatı A.Nesterovun, tibb elmləri doktoru, professor Z.Skripinçenkonun, Sankt-Peterburq Gigiyena İnstitutunun göz xəstəlikləri kafedrasının müdiri, professor A.N.Dobromislovun və başqalarının yazılarında alimin şərəfli və zəngin elmi fəaliyyətinin nailiyyətlərindən danışılır. Zərifə Əliyevanın zəngin pedaqoji, elmi və əməli təcrübəsi "Oftalmologiyanın aktual məsələləri" monoqrafiyasında (professor N.B.Şulpina və L.F.Moşetova ilə birlikdə) öz əksini tapıb.

Moskva Oftalmoloji Məktəbi Zərifə xanımı oftalmologiyanın mirvarisi, professor A.Brovkina Onu nəciblik və mənəvi paklıq timsalı adlandırmışdır. Rusiya Tibb Elmləri Akademiyasının həqiqi üzvü M.M.Krasnov isə yazırdı: "Zərifə xanım Əliyeva haqqında xatirələrimi bir sözlə ifadə etməli olsaydım, deyərdim: O, həm xeyirxah idi, həm ağıllı idi, həm də qüdrətli idi!"

Bəli, Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir. Zərifə xanım Əliyeva tibb elminə və praktikasına, yüksək ixtisaslı tibbi kadrların hazırlanmasına da əvəzsiz töhfələr vermişdir. Onun çoxcəhətli elmi fəaliyyətinin nəticələri 130 əsərdə, o cümlədən, 5 monoqrafiyada, həkimlər üçün bir sıra dərs vəsaitlərində, sənayenin müxtəlif sahələrində göz zədələrinin profilaktikasına dair metodik tövsiyələrdə öz əksini tapmışdır.

Zərifə Əliyeva həkimlik etikası ilə bir nümunə idi. Zərifə xanım öz həmkarlarına da həmişə tövsiyə edirdi ki, insana tibbi yardım göstərmək, sağlamlığı uğrunda mübarizə aparmaq onu özünə qaytaran əsl humanist xidmətdir. Bu, Zərifə xanımın təbabət fəlsəfəsinin başlıca qayəsi olub. Həkimin başlıca peşəsi müalicə kursunu müəyyənləşdirməklə yanaşı, xəstəyə insani dəyərlər prizmasından yanaşmaq, onun şəxsiyyətinə dərin ehtiram göstərməkdir ki, bu da Zərifə xanım Əliyevada özünü açıq-aydın büruzə verirdi. Müasirləri Onun haqqında söz açarkən, nəcib bir Azərbaycan qadını olduğunu vurğulayırlar. Zərifə xanım işinin gərginliyinə baxmayaraq, həmişə bir qadın kimi mülayimliyi ilə, həssalığı, insanlara mehriban və qayğı ilə yanaşması ilə seçilib. Özünün insani təravəti, səmimiliyi, başqalarının kədərinə yanması və köməyinə çatması, ən ağır anlarda insana dayaq durması məxsusi dəyərləri sırasında hallanır. Bəli, bu keyfiyyətləri, peşəkarlığı, ictimai fəallığı ilə Zərifə xanım Əliyeva yüksəkdə dayanır və zaman-zaman xatırlanaraq, fəaliyyətinə nəzər yetirilir. Bu həyat yoluna nəzər saldıqda, bitib-tükənməyən arzulara doğru yol açan ömrün gözəlliyi diqqəti cəlb edir. Bir ana ömrü, bir tədqiqatçı ömrü, bir həkim ömrü, bir alim ömrü və ömürlərə sığmayan bənzərsiz şəxsiyyət ömrü. Bu keyfiyyətlər və dəyərlər, məhz şəxsiyyət olaraq ziyalının ömrünə işıq saçmışdır. Zərifə xanım incə və zərif duyğuların vəhdətində Azərbaycan xanımına məxsus olan əlvan çalarlı ömrünü yazılı salnamələrdə əks etdirdi. Görkəmli dövlət və elm xadimi, bütün bilik və bacarığını xalqa xidmətə sərf etmiş Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım valideynlərinə layiqli bir övlad, məşhur alim, tanınmış həkim, istedadlı insan, sədaqətli ömür yoldaşı və qayğıkeş ana idi. Zərifə xanım Əliyeva Ümummilli Lider, müstəqil Azərbaycan dövlətinin Memarı və Qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş Dahi Şəxsiyyət Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı və etibarlı silahdaşı olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur və iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi olub. Övladlarını Ulu Tanrı tərəfindən bəxş olunan nur payı tək qəbul edib. Zərifə xanım Əliyeva cəmiyyət üçün böyük dəyərlərə malik övladlar tərbiyə etmişdir. Bu, Onun fədakar ana olmasından irəli gəlirdi. O, nə edirdisə, böyük sevgi ilə edirdi.

Zərifə xanım qayğıkeş ana, gözəl, vəfalı ömür-gün yoldaşı olaraq iki övlad böyüdüb - ata-anasına layiq, qəlbləində daim Azərbaycan sevgisi yaşadan, vətənimizin qüruru sayılan övladlar kimi. Zərifə xanım ən yüksək mənəvi hazırlığa malik bir xanım və ana idi.

Göründüyü kimi, Zərifə xanımın bir qadın olaraq ətrafında nə qədər məsuliyyət cəmləşib: ana, həyat yoldaşı, övlad, Vətən keşiyində duran elmli-zəkalı ziyalı. Elm, ədalət, səxavət, səbr, həya və ismət kimi keyfiyyətlər Onun həyat simvoluna çevrildi. Bu dəyərlər içərisində güclü və fədakar oldu. Azərbaycan tarixinə məxsusi dəyərləri ilə iz saldı. Yaşanılan ömür yolunun sərlövhələri Onu zamanımızın seçilən xanımı etməklə yanaşı, gələcək nəsillər üçün örnək olacaq bir simaya çevirdi. Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi hər kəsə bəlli bir nümunəvi yoldur.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda dəfn olunmuşdur.

***ZÜMRÜD BAYRAMOVA***

# “Azərbaycan və Böyük Britaniya əməkdaşlığının 100 illiyi” kitabının təqdimatı olub







*Aprelin 12-də Bakıda “Azərbaycan və Böyük Britaniya əməkdaşlığının 100 illiyi” adlı kitabın təqdimat mərasimi keçirilib. AZƏRTAC xəbər verir ki, kitabın müəllifi, SOCAR-ın vitse-prezidenti Rəfiqə Hüseynzadə Britaniyanın “Senate Publishing” nəşriyyatı tərəfindən çap olunan əsər barədə ətraflı məlumat verib.*



Bildirib ki, kitabda Azərbaycan ilə Böyük Britaniyanın münasibətləri, eyni zamanda, Azərbaycanın tarixi, mədəni irsi haqqında məlumat verilir. Qeyd edilir ki, Azərbaycan-Böyük Britaniya münasibətlərinin müasir tarixi öz başlanğıcını keçən əsrin 90-cı illərinin əvvəllərindən götürsə də, qısa müddətdə iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi baxımından yüksək tarixi nailiyyətlər əldə olunub. 1993-cü ildən başlayaraq münasibətlərimizin yüksələn xətt üzrə inkişafı siyasi, iqtisadi, mədəni, təhsil və idman sahələrində əməkdaşlıqda müsbət çalarlarla öz əksini tapıb.

R.Hüseynzadə ölkələrimiz arasındakı münasibətlərin müxtəlif sahələri əhatə etdiyini bildirib. Qeyd edib ki, bu əlaqələrin qurulması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün bu əlaqələr Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

Xarici işlər nazirinin müavini Ramiz Həsənov Azərbaycan ilə Böyük Britaniya arasındakı əlaqələrin tarixindən danışıb. Bildirib ki, bu əlaqələrin dərin tarixi kökləri var. Böyük Britaniya Azərbaycanın müstəqilliyini tanıyan ilk Qərb ölkələrindən biri olub. Ulu öndər Heydər Əliyevin 1994-cü ildə Böyük Britaniyaya səfəri ilə iki ölkə arasında münasibətlər daha da dərinləşdi. Bu gün bu münasibətlər Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ölkələrimiz arasında əlaqələrin daha çox enerji sahəsi ilə bağlı olduğunu deyən R.Həsənov bu münasibətlərin digər sahələrdə də inkişaf etdiyini bildirib. Azərbaycan və Böyük Britaniya təhsil sahəsində də uğurlu əməkdaşlıq edirlər. Çoxsaylı azərbaycanlı tələbələr bu ölkədə təhsil alır. Azərbaycan Böyük Britaniyanın Qafqaz və Xəzər regionunda etibarlı tərəfdaşıdır. Azərbaycan və Böyük Britaniya həm ikitərəfli şəkildə, həm də beynəlxalq təşkilatlar çərçivəsində beynəlxalq təhlükəsizliyin qorunmasına mühüm töhfə verirlər. Azərbaycanda 500-ə yaxın Böyük Britaniya sərmayəli şirkət var və onların arasında qeyri-neft sektorunda fəaliyyət göstərən şirkətlərin sayı çoxluq təşkil edir. Mədəni sahədə də mühüm əməkdaşlıq mövcuddur və bu istiqamətdə hər iki ölkədə müntəzəm tədbirlər keçirilir. Bu kitab Böyük Britaniya ictimaiyyətinin Azərbaycanı daha yaxından tanımasına imkan verəcək.

Sonra BP şirkətinin baş icraçı direktoru Bob Dadlinin tədbir iştirakçılarına təbriki səsləndirilib. Təbriki “BP Azerbaijan” şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli oxuyub.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov tədbirdə çıxış edərək ölkələrimiz arasındakı əlaqələrin tarixindən və müasir inkişaf səviyyəsindən danışıb. Qeyd edib ki, ölkələrimiz arasında əlaqələrin tarixi daha qədimlərə, təxminən XVI-XVII əsrlərə gedib çıxır. Müstəqillik dövründə Azərbaycan-Britaniya əlaqələri daha da genişlənib. Bu əlaqələrin inkişafında ulu öndər Heydər Əliyevin böyük xidmətləri olub. Ölkələrimizin münasibətlərində inkişafın yeni mərhələsi Prezident İlham Əliyevin adı ilə bağlıdır. Prezidentin köməkçisi vurğulayıb ki, Böyük Britaniya Azərbaycanın Avropada ən etibarlı tərəfdaşlarından biridir. Azərbaycan ilə Böyük Britaniya arasında iqtisadi, siyasi, sosial və digər sahələrdəki münasibətlər Avropanın başqa ölkələri üçün nümunədir.

Əli Həsənov qeyd edib ki, BMT Təhlükəsizlik Şurasının 853-cü qətnaməsi birbaşa Böyük Britaniyanın təşəbbüsü ilə qəbul edilib. Həmin vaxt Böyük Britaniya BMT Təhlükəsizlik Şurasının sədri idi. BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı qəbul etdiyi 4 qətnaməyə diqqət yetirsək görərik ki, məhz 853-cü qətnamə ən dəqiq ifadə ilə erməni işğalçı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından qeyd-şərtsiz çıxarılmasını tələb edir. “Düşünürük ki, Böyük Britaniya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində indiyə qədər oynadığı rolu bundan sonra da davam etdirəcək, Azərbaycanın haqlı mövqeyinin beynəlxalq aləmdə tanınmasına, işğal olunmuş torpaqlarımızın azad edilməsinə, bir milyondan çox qaçqın və məcburi köçkünümüzün öz doğma yurdlarına qayıtmalarına dəstək göstərəcək”, - deyə Əli Həsənov bildirib.

BP-nin Azərbaycanın enerji sektoruna ən çox sərmayə qoyan xarici şirkət olduğunu vurğulayan Prezidentin köməkçisi qeyd edib ki, bu şirkət Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin strateji səviyyəyə yüksəlməsində mühüm rol oynayıb.

“Senate Publishing” nəşriyyatının rəhbəri, Lordlar Palatasının üzvü David Evans iki ölkə arasındakı münasibətlərdən söhbət açıb. Bildirib ki, Azərbaycan və Böyük Britaniya arasında dərin dostluq münasibətləri, sıx iqtisadi əməkdaşlıq əlaqələri var. İki ölkə arasında münasibətlər strateji xarakter daşıyır. Azərbaycan Böyük Britaniyanın parlament dairələrində çox yaxşı tanınır. Azərbaycan-Böyük Britaniya əməkdaşlığı güclü ikitərəfli əlaqələrə, sabit, etibarlı tərəfdaşlığa və investisiyalara əsaslanır. Ölkələrimiz arasında maliyyə, təhsil, mədəni və digər sahələrdə də səmərəli əməkdaşlıq mövcuddur. Əminik ki, səmimi dostluğa söykənən bu münasibətlər bundan sonra da davam etdiriləcək.

## Şamil Ayrım: Azərbaycanda həyata keçirilən islahatlar ölkənin hərtərəfli inkişafını təmin edir



Prezident İlham Əliyev çevik siyasəti və məqsədyönlü qərarları ilə Azərbaycan dövlətinə həmişə öz vətəndaşının yanında olan dövlət imici qazandırıb. Bu fikirləri AZƏRTAC-a açıqlamasında dövlətimizin başçısı İlham Əliyevin növbəti prezidentlik dövrünün ilk ilində ölkəmizin əldə etdiyi uğurları şərh edən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım ifadə edib.

Azərbaycanda həyata keçirilən islahatların əhalinin rifah halının yüksəldilməsini və ölkənin hərtərəfli inkişafını təmin etdiyini diqqətə çatdıran Şamil Ayrım əminliklə bildirib ki, Azərbaycanda xalq-iqtidar birliyinin qorunması sabitlik və inkişafın əsasını təşkil edir. O deyib: “Azərbaycanda siyasi, iqtisadi, təhsil, səhiyyə və digər sahələrdə həyata keçirilən islahatlar böyük nəticələr verməkdədir. Gənclərin yüksək təhsil alması üçün dövlət proqramlarının həyata keçirilməsi, gənclərin ali dövlət vəzifələrində irəli çəkilməsi, devalvasiya, təbii fəlakətlər və məişət hadisələri nəticəsində zərər çəkən vətəndaşlara kompensasiyaların ödənilməsi, Qarabağ müharibəsində şəhid olanların ailələrinə, eləcə də qazilərə göstərilən diqqət və qayğı, iqtisadiyyatın neftdən asılılığının aradan qaldırılması və s. mühüm işlər Prezident İlham Əliyevin bir illik fəaliyyətində inqilabi nailiyyətlər siyahısıdır. Fransanın nüfuzlu və peşəkar tədqiqat mərkəzlərindən biri olan “Opinion Way” şirkətinin Azərbaycan Prezidentinin son 1 il ərzindəki fəaliyyəti ilə bağlı keçirdiyi rəy sorğusunda “Azərbaycanda həyata keçirilən sosial-iqtisadi fəaliyyəti və bu sahədə Prezident İlham Əliyevin son ildə apardığı islahatları necə qiymətləndirirsiniz” sualına respondentlərin 90,5 faizinin bütövlükdə müsbət cavab verməsinin əsasını yuxarıda sadaladığım amillər təşkil edir”. Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə münasibətlərində dinamik inkişafın qorunmasına polad siyasi iradə nümayiş etdirdiyini vurğulayan Şamil Ayrım bildirib ki, tarixi missiya daşıyan bu proses hər iki ölkədə xalq tərəfindən yüksək dəyərləndirilir.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 aprel 2019-cu il

# İlham Əliyev: yeni prezidentlik dövrünün möhtəşəm bir ili



***2018-ci il aprelin 11-də Azərbaycanda növbədənkənar Prezident seçkiləri keçirildi. Seçkilərdə inamlı qələbə qazanmış cənab İlham Əliyev aprelin 18-də Konstitusiyaya və müqəddəs Qurani-Kərimə əl basaraq and içdi və növbəti 7 il üçün Prezident səlahiyyətlərinin icrasına başladı.***

Azad seçki fəaliyyəti bəşər sivilizasiyasının nailiyyətləri sırasında xüsusi yer tutur. Müasir hüquqi, demokratik dövlətin, xalqın iradəsinə əsaslanan hakimiyyət orqanlarının, səmərəli özünütəşkil mexanizmlərinə malik cəmiyyətin mövcudluğunu azad və ədalətli seçkilərsiz təsəvvür etmək mümkün deyildir. Məlum olduğu kimi, 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Azərbaycan Respublikası Konstitusiyanın 101-ci maddəsinə dəyişiklik edilərək, dövlət başçısının səlahiyyət müddəti 5 ildən 7 ilə qədər uzadılmış və Azərbaycan Respublikası Prezidentinə seçicilərə etimad votumu üçün müraciət imkanı - növbədənkənar prezident seçkilərini elan etmək səlahiyyəti verilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konstitusiya səlahiyyətindən istifadə edərək 2018-ci il 5 fevral tarixli sərəncamı ilə növbədənkənar prezident seçkiləri elan etdi. Ölkənin dinamik tərəqqisi yolunda yeni bir mərhələnin başlanğıcını qoyan bu seçkilər, respublikamızda demokratik siyasi sistemin və liberal cəmiyyətin dərin kök saldığını bir daha nümayiş etdirdi.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra ictimai-siyasi sabitliyin bərqərar edilməsi ölkə həyatının bütün istiqamətlərində, o cümlədən siyasi-hüquqi sahədə köklü islahatların aparılmasını mümkün etmişdir. Ötən dövr ərzində Azərbaycan Respublikasının seçki sistemi müxtəlif mərhələlərdən keçərək inkişaf etmiş, konstitusiya təminatları da daxil olmaqla, qanunvericilik və təcrübə baxımından təkmilləşdirilmiş, beynəlxalq standartlara uyğunlaşdırılmışdır. İndiyə qədər ölkəmizdə keçirilmiş prezident, parlament, bələdiyyə seçkiləri, ümumxalq səsvermələrinin (referendumların) təcrübəsi göstərir ki, Azərbaycanda əhalinin seçki mədəniyyəti kifayət qədər yüksəlmiş, effektiv ictimai nəzarəti təşkil etməyi bacaran, məsuliyyətli və tələbkar seçici nəsli yetişmişdir. Növbədənkənar Prezident seçkiləri də məhz belə şəraitdə keçirilmiş, xalqın iradəsini dolğunluqla əks etdirmişdir. Seçki prosesində bilavasitə iştirak etmiş maraqlı tərəflər, seçkilərin bütün mərhələlərini diqqətlə izləmiş yerli və xarici müşahidəçilər bu faktı təsdiq etmişlər.

Prezidentliyə namizədlərdən biri - fəaliyyətdə olan Prezident İlham Əliyev əvvəlki seçkilərdə olduğu kimi, bu dəfə də öz təşviqat kampaniyasında şəxsən iştirak etməmişdir. Digər namizədlərin isə hər biri yaradılmış əlverişli imkanlardan özünün və komandasının qurduğu strategiyaya uyğun yararlanmışdır.

Seçkiqabağı kampaniyanın televiziyalarda işıqlandırılmasının monitorinqi də göstərmişdir ki, özəl telekanallarda digər namizədlərin hər birinin təşviqatına dair materiallar fəaliyyətdə olan Prezidentin təşviqindən bir neçə dəfə çox olmuşdur. Məsələn, seçkiqabağı təşviqat kampaniyasının üçüncü həftəsində telekanallarda ("Lider" televiziyası, ARB TV, Xəzər TV, "Space" TV, " Azad Azərbaycan" Teleradio Yayım Şirkəti) YAP-ın namizədinə 15 dəqiqə 36 saniyə, digər namizədlərə isə 1 saat 25 dəqiqə 5 saniyə təşviqat vaxtı ayrılmışdır.

MSK-nın yekun məlumatına görə, ölkə üzrə seçicilərin ümumi sayının 74,30 faizi səsvermədə iştirak etmiş və onların 86.02 faizi cənab İlham Əliyevə səs vermişdir. Rəsmi açıqlanan rəqəmlər "exit-poll"ların nəticələrinə yaxın olmuşdur.

## Azərbaycan xalqının cənab İlham Əliyevə yüksək inam və etimadını şərtləndirən amillər

Cənab İlham Əliyevin seçkilərdə yenidən qələbə qazanmasının əsasında Azərbaycanın son 15 il ərzində onun rəhbərliyi altında dinamik inkişaf dövrünü yaşaması, ölkəmizin qarşısında dayanan vəzifələrin uğurla icra edilməsi kimi ciddi amillər dayanır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2003-cü ildə və ondan sonrakı illərdə respublikamızın inkişafı, xalqımızın əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsi üçün verdiyi bütün vədlər həyatda öz təsdiqini tapmışdır. 15 il ərzində Azərbaycan bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayaraq, modernləşmə yoluna qədəm qoymuşdur. Ölkə iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan (2004) 46 milyard dollara (2018) çatdırılmışdır. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur. Bu isə müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizi deməkdir. Azərbaycan beynəlxalq reytinqlərdə yüksək yerlərə qalxmışdır. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Davos İqtisadi Forumu Azərbaycanda aparılan islahatlara yüksək qiymət vermişdir. Davos Forumunun "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında (2017) ölkəmiz inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlmişdir.

Keçən dövr ərzində Azərbaycan Cənubi Qafqazın aparıcı dövləti kimi dünya birliyində mövqelərini daha da möhkəmləndirmişdir. Digər ölkələrin suverenliyinə, ərazi bütövlüyünə və daxili işlərinə qarışmamaq ölkəmizin xarici siyasət strategiyasının əsas prinsiplərindən birini təşkil etmişdir. Beynəlxalq aləmlə qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlıq, geostrateji maraqların reallaşması, terrorizmlə mübarizə, vətəndaşlarımızın firavan və təhlükəsiz şəraitdə yaşayışının təmin olunması istiqamətində uzaqgörən xarici siyasət həyata keçirilmişdir.

Azərbaycan enerji resurslarının dünya bazarlarına səmərəli və əlverişli yollarla çıxarılmasını nəzərdə tutan praqmatik siyasət həyata keçirir və şaxələndirilmiş nəqliyyat infrastrukturu ilə beynəlxalq birliyin diqqətini özünə cəlb edir. Bütün bunlar ölkəmizlə dünya dövlətləri arasında ticarət-iqtisadi əlaqələrin möhkəmlənməsi və ilk növbədə Azərbaycanın geoiqtisadi maraqlarının təmin edilməsi baxımından böyük əhəmiyyət daşıyır. Respublikamız transmilli enerji-nəqliyyat layihələrinin əsas təşəbbüskarlarından biri olmaqla yanaşı, regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır.

Ötən illər ərzində qazanılmış nailiyyətlər sırasında milli mədəniyyətin inkişafını xüsusi qeyd etməliyik. Milli-mənəvi dəyərlərimizin təbliğinə, mədəni həyatımızın zənginləşməsinə göstərilən diqqət və qayğı, bu istiqamətdə həyata keçirilən məqsədyönlü siyasət milli mədəniyyətimizin qorunmasında və dünya miqyasında tanıdılmasında böyük nailiyyətlər qazanmağa imkan vermişdir.

Azərbaycan dünyada multikultural dəyərlərin inkişaf etdiyi çoxmillətli ölkə kimi tanınır. Respublikamız müxtəlif mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə sivilizasiyalararası dialoqun təmin olunmasında mühüm rol oynayır. Azərbaycanda müxtəlif mədəniyyətlər arasında vəhdət və qarşılıqlı təsirin mövcud olması müasir cəmiyyətimizin əsas xüsusiyyətlərindən biridir.

Gənclər millətin varlığının və gələcək inkişafının təməl daşıdır. Bu mövqedən çıxış edərək son illər ərzində ölkəmizdə gənclərlə bağlı məqsədyönlü dövlət siyasəti həyata keçirilmişdir. Onun əsas qayəsini dövlətçiliyə, milli-mənəvi dəyərlərə sadiq və yüksək intellektual potensiala malik Azərbaycan gəncliyinin formalaşdırılması təşkil etmişdir. Bu sahədə atılan addımlar gənclərin cəmiyyətimizdə özlərini təsdiq etməsində mühüm rol oynamış, onların vətənimizə layiq vətəndaşlar kimi yetişməsinə böyük təsir göstərmişdir.

Azərbaycan Respublikası dövlətimizin ərazi bütövlüyünü qoruyan, dünyanın ən güclü orduları ilə eyni sırada yer alan və yüksək döyüş hazırlığı olan Silahlı Qüvvələrə malikdir. 2016-cı ilin aprel ayında Milli Ordumuz ermənilərin təxribatına layiqli cavab verməklə düşmənə sarsıdıcı zərbələr endirdi və zəbt olunmuş ərazilərimizin bir hissəsini işğalçılardan təmizlədi. Bununla da Azərbaycan Böyük qayıdış üçün ciddi addımını atdı. Hər birimiz indi erməni qəsbkarlarının vaxtilə işğal etdiyi Cocuq Mərcanlı kəndində Azərbaycan bayrağının dalğalanmasından böyük qürur hissi keçiririk. Bu

şanlı qələbə erməni işğalçılarına xalqımızın və dövlətimizin gücünü nümayiş etdirdi, Milli Ordumuzun işğal olunmuş torpaqlarımızı istənilən anda azad etməyə qadir olduğunu göstərdi.

Göründüyü kimi, cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin əldə etdiyi uğurlar Azərbaycan vətəndaşlarını prezident seçkilərində fəal şəkildə iştirak etməyə və xalqımızı inamla firavan gələcəyə aparan liderini növbəti dəfə dəstəkləməyə ruhlandırmışdır.

## İslahatların yeni dalğası

Xatırlatmaq istərdik ki, növbədənkənar prezident seçkilərində səsvermədən iki gün əvvəl - aprelin 9-da Prezident İlham Əliyev 2018-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə dair Nazirlər Kabinetinin iclasında islahatların davam etdirilməsinin vacibliyini vurğulamış və görüləcək işlərlə bağlı mülahizələrini açıqlamışdı. Cənab Prezident qeyd etmişdi ki, ölkədə biznes mühitinin yaxşılaşdırılması istiqamətində bundan sonra da addımlar atılacaq, vergi, gömrük sistemində aparılan ciddi islahatlar, sağlamlaşdırma prosesi davam etdiriləcək, institusional və digər tədbirlər həyata keçiriləcəkdir. Azərbaycan Prezidenti sənayenin, aqrar sahənin dəstəklənməsi və infrastrukturun inkişafı istiqamətində də işlərin davam etdiriləcəyini, məşğulluğun artırılması, yoxsulluğun azaldılması və sosial təminat istiqamətində mühüm addımların atılacağını bildirmişdi. Cənab İlham Əliyev aprelin 18-də keçirilən andiçmə mərasimindəki nitqində isə növbəti müddətdə dövlət başçısı postunda fəaliyyətinin əsas istiqamətlərini bəyan etdi. O, seçkiqabağı təşviqat mərhələsində digər namizədlərin də səsləndirdiyi fikirlərin və təkliflərin nəzərə alınacağını, qaldırılmış məsələlərə diqqətlə baxılacağını xüsusi vurğuladı. Prezident İlham Əliyev növbəti illərdə də bütün sahələrdə islahatların davam etdiriləcəyini, dövlət siyasətinin mərkəzində Azərbaycan xalqının köklü maraqlarının, maddi, mənəvi və sosial tələbatlarının dayanacağını qeyd etdi: "Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır. Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır". Prezident İlham Əliyev sonrakı nitq və çıxışlarında, o cümlədən Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında (11 yanvar), "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda (29 yanvar) etdiyi çıxışlarda, Novruz bayramı münasibətilə xalqa təbrik nitqində və ictimaiyyətlə görüşlərində ölkədəki real vəziyyətin təhlilini vermiş, dövlət idarəçiliyi, iqtisadi inkişaf, sosial müdafiə, məhkəmə-hüquq və digər sahələrdə nəzərdə tutulmuş islahatların başlıca tezislərini bəyan etmişdir. Azərbaycan Prezidenti islahatların əsas strategiyasının ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsinə, demokratik dəyərlərin inkişafına və dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsinə yönəldiyini bildirmiş, bu məqsədlə cəmiyyətin bütün sahələrində ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdir.

Cənab İlham Əliyev yenidən Azərbaycan Prezidenti seçildikdən sonra Nazirlər Kabinetinin tərkibində ciddi yeniləşmələr baş vermiş, müasir idarəetmə bilik və bacarıqlarına malik olan cavan kadrlar hökumətdə yüksək vəzifələrə təyin olunmuşlar. İctimai rəydə böyük rəğbətlə qarşılanan kadr siyasəti dövlət orqanlarının çevik və səmərəli şəkildə fəaliyyətinə mühüm təsir göstərmişdir. Bu zaman dövlət idarəçiliyi sistemində səmərəliliyin yüksəldilməsi və müasir dövrün tələblərinə cavab verən yeni idarəetmə strukturunun formalaşdırılması zərurəti nəzərə alınmışdır. Dövlət orqanlarının və qurumlarının fəaliyyətini optimallaşdırmaq məqsədilə 2019-cu il yanvarın 14-də Azərbaycan Prezidenti dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalamışdır. Sənəddən irəli gələrək idarəetmə sistemində çevikliyin və effektivliyin təmin olunması istiqamətində əsaslı struktur islahatlarına başlanılmışdır.

Qeyd edək ki, bu islahatların aparılması bütövlükdə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə reallaşan çoxşaxəli islahatlar konsepsiyasının əsas istiqamətlərindən birini təşkil edir. İslahatlar sürətli sosial-iqtisadi inkişafa, əhalinin sosial rifahının yüksəlməsinə mühüm təkan verməklə yanaşı, həm də Azərbaycanı beynəlxalq aləmdə islahatçı dövlət kimi tanıtmaqdadır.

Prezident İlham Əliyevin siyasi iradəsi ilə son bir ildə məhkəmə sisteminin modernləşməsi prosesi cəmiyyətin inkişafına adekvat olaraq uğurla aparılmışdır. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələrək apelyasiya və inzibati-iqtisadi məhkəmələrin fəaliyyəti təkmilləşdirilmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq islahatları Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir. Azərbaycan Prezidentinin 2019-cu il aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərman məhz həmin məqsədə xidmət edir. Fərmanda müasir dövrün tələblərinə cavab verən ədalət mühakiməsinin formalaşdırılması, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, eyni zamanda, ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi üçün hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması, müvafiq infrastrukturun yenilənməsi işlərinin davam etdirilməsi, məhkəmə icraatında müasir informasiya texnologiyalarından hərtərəfli istifadə edilməsi və digər mühüm məsələlərin həll olunması istiqamətində zəruri tədbirlərin görülməsi nəzərdə tutulmuş, aidiyyəti qurumlara müvafiq tapşırıq və tövsiyələr verilmişdir.

Fərmanda sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması və sahibkarlıqla bağlı mübahisələrə müvafiq sahədə daha dərin hüquqi bilik və təcrübəsi olan hakimlər tərəfindən baxılmasını təmin etmək məqsədilə vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə, habelə sahibkarlıq fəaliyyəti ilə əlaqədar digər məsələlərə dair işlər üzrə ixtisaslaşmış məhkəmənin yaradılması, hakimlərin müstəqilliyini təmin etmək məqsədilə məhkəmələrin fəaliyyətinə müdaxilənin qarşısının alınması mexanizmlərinin təkmilləşdirilməsi və belə müdaxiləyə görə məsuliyyətin artırılması və digər mühüm məsələlərlə bağlı qanunvericilik aktlarının layihələrinin hazırlanması müvafiq icra hakimiyyəti orqanına tapşırılmışdır.

Məhkəmə-hüquq sahəsində mühüm islahatlardan biri də mediasiya institutunun yaradılmasıdır. Martın 29-da bununla bağlı müvafiq qanun Prezident tərəfindən imzalanmışdır. Qanunda mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili məsələləri öz əksini tapmışdır.

Prezident İlham Əliyev cinayət törətmiş şəxslərin bağışlanması ənənəsini davam etdirmişdir. Azərbaycan Prezidentinin 2019-cu il 16 mart tarixli "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" sərəncamı ilə 431 nəfər əfv edilmişdir.

## Sosial təminat paketinin hazırlanması və həyata keçirilməsi

Sosial təminat paketinin həyata keçirilməsi ölkədə sosial müdafiə sisteminin gücləndirilməsi sahəsində atılan mühüm addımlardan biridir. Bu paketdə müəyyənləşdirilmiş məqsədlərdən irəli gələrək Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə şəhid ailələri üçün nəzərdə tutulmuş Prezident təqaüdünün məbləği 242 manatdan 300 manata, Əfqanıstan müharibəsində həlak olanların ailələrinə verilən müavinət 220 manatdan 300 manata qaldırılmışdır. Minimum əməkhaqqı və pensiyalarda 40 faizədək artım olmuşdur. Təxminən 100 minə yaxın tələbənin təqaüdü əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Ötən dövr ərzində qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində mühüm addım atılmışdır. Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği isə 50 faiz artırılmışdır. Təkcə 2018-ci ildə 5903 məcburi köçkün ailəsi yeni mənzillərə köçürülmüşdür. Həmin il şəhid ailələri və Qarabağ müharibəsi əlilləri 626 mənzillə təmin edilmiş, 2019-cu ildə isə onlara 800-ə yaxın mənzilin verilməsi nəzərdə tutulmuşdur.

2018-ci ilin aprel ayında seçkilərdən dərhal sonra Prezident İlham Əliyev "Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" fərman imzalamışdır. Sənəddə bu qəbildən olan insanların vərəsələrinə on bir min manat məbləğində birdəfəlik ödəmənin verilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Prezidenti 2019-cu il yanvarın 11-də Nazirlər Kabinetinin iclasında bu məsələyə yenidən qayıdaraq demişdir: "Bildiyiniz kimi, keçən il prezident seçkilərindən dərhal sonra şəhid ailələrinin vərəsələrinə, - o vərəsələrə ki, o yardımı, o müavinəti almayıblar, - mənim sərəncamımla 11 min manat vəsait nəzərdə tutulur. Eyni zamanda, siyahılara baxılır, dəqiqləşdirilir və bu məsələ ilə bağlı təkliflər də irəli sürülür. Burada, əlbəttə ki, sosial ədalət prinsipi əsas olmalıdır. Qanun və ədalət. Əminəm ki, biz bu istiqamətdə də istədiyimizə nail olacağıq". Cənab Prezident o zaman "qanun və ədalət" prinsipini önə çəkərək vaxtilə bu yardımı alanlara indikindən xeyli az vəsait ödənildiyini nəzərə çatdırdı və yaranmış uyğunsuzluğun tezliklə aradan qaldırılmasını təmin etdi.

Azərbaycan Prezidentinin 2019-cu ilin fevral ayında "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" və "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" fərmanları sosialyönümlülük və humanizm prinsiplərinin əsas götürülərək, əhalinin sosial maraqlarının müdafiəsinə və rifah halının yaxşılaşmasına yüksək diqqət yetirildiyini bir daha göstərdi.

## Mütərəqqi inkişafın təməlində dayanan iqtisadi nailiyyətlər

Cənab İlham Əliyevin yenidən Prezident seçilməsindən ötən bir il ərzində digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də ciddi nailiyyətlər qazanılmışdır. Azərbaycan iqtisadiyyatının dayanıqlığının təmin edilməsi, onun neftdən və qazdan asılılığının daha da azalması, qeyri-neft sektorunun inkişafı məqsədilə ardıcıl tədbirlər davam etdirilmişdir. İqtisadi və maliyyə sektorlarında maksimum şəffaflığın təmin olunması istiqamətində mühüm addımlar atılmışdır. Müasir mərhələdə onu da nəzərə almaq lazımdır ki, bu sahələrdə kompleks tədbirlərin görülməsi iqtisadiyyata, xüsusilə də qeyri-neft sektoruna böyük həcmdə xarici sərmayənin cəlb olunması üçün mühüm əhəmiyyət daşıyır.

Həyata keçirilmiş iqtisadi islahatlar, gömrük və vergi sahəsində şəffaflıqla bağlı görülən işlər büdcə daxilolmalarına da müsbət təsir göstərmişdir. 2019-cu ilin birinci ayında büdcəyə daxilolmalar xeyli artmış, vergi orqanları plandan əlavə 80 milyon manatdan çox, gömrük orqanları isə 20 milyon manatdan çox vəsait toplamışlar. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 26 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "2018-2020-ci illərdə Azərbaycanda rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"ndan irəli gələrək vergi sistemində həyata keçirilən əsaslı dəyişikliklər də öz bəhrəsini verməyə başlamışdır.

Son bir ildə sahibkarlığın inkişafına dəstək mexanizminin təkmilləşdirilməsi, qeyri-neft sektorunda innovativ texnologiyalara əsaslanan yeni istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması, ixrac əməliyyatlarının maliyyələşdirilməsi, real sektora investisiya qoyuluşlarının sürətləndirilməsi və özəl sektorda fəaliyyət göstərən təsərrüfat subyektlərinin maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi sahəsində mühüm addımlar atılmışdır. Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 31 iyul tarixli fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu təsis edilmişdir. Fondun yaradılması sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli kredit vəsaiti hesabına maliyyələşdirilməsində mühüm əhəmiyyət daşıyır. 2018-ci ildə fondun xətti ilə 999 sahibkara 160,0 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb, İpoteka və Kredit Zəmanəti Fondu isə ölkə bankları tərəfindən kreditləşdirilən 277,0 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib, 17,0 milyon manat məbləğində kreditlərlə bağlı zəmanət dəstəyi göstərib. Sahibkarlara köməyin gücləndirilməsi üçün bir çox ölkələrə ixrac missiyaları təşkil olunmuşdur. Sahibkarlığa dəstək məqsədilə artıq Belarus, Çin, Ukrayna, Latviya və Polşada Azərbaycan Ticarət evləri fəaliyyətə başlamışdır. Ticarət evlərinin açılması eyni zamanda həmin ölkələrə Azərbaycanın ixracını da artırır. Yaxın gələcəkdə Birləşmiş Ərəb Əmirliklərində və Rusiyada Azərbaycan Ticarət evlərinin açılması nəzərdə tutulur.

Ötən dövr ərzində sənaye potensialının inkişafı ilə bağlı göstəricilərin yüksək dinamikasına nail olunmuşdur ki, bunun nəticəsində sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 9,1 faiz artmışdır. 2016-cı ildən tətbiqinə başlanmış investisiya təşviqi mexanizmi müsbət nəticələr verməkdədir. Hazırda bu proqram 300-dən çox layihəni əhatə edir ki, onlardan 107-si 2018-ci ildə icra olunub. İnvestisiya təşviqi proqramı çərçivəsində həyata keçirilən layihələrin dəyəri 2,8 milyard manatdır. İndiyə qədər bu layihələrin icrası nəticəsində 12 min iş yeri yaradılmışdır. 2018-ci ilin iyul ayında Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodu fəaliyyətə başlamışdır.

Azərbaycan iqtisadiyyatında rəqabətliliyin artırılması özünün müsbət əksini nüfuzlu beynəlxalq təşkilatların və aparıcı maliyyə qurumlarının reytinq cədvəllərində tapmışdır. Məsələn, Davos Forumunun hesablamalarına əsasən, ölkəmiz iqtisadi rəqabətliliyə görə dünyada 35-ci yeri tutur. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünya miqyasında 25-ci yerdədir.

Ardı Səh. 10

# İlham Əliyev: yeni prezidentlik dövrünün möhtəşəm bir ili

Əvvəli-Səh-9

Regionların inkişafı sahəsində həyata keçirilmiş dövlət proqramlarında və digər direktiv sənədlərdə nəzərdə tutulmuş vəzifələrin icrası qeyri-neft sektorunun inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına mühüm təkan vermişdir. Regionların III sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində ötən bir il ərzində bölgələrdə əhəmiyyətli infrastruktur layihələri icra edilmiş, yeni sənaye müəssisələri yaradılmışdır.

Bununla yanaşı, regionların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, o cümlədən infrastruktur layihələri ilə bağlı Azərbaycan Prezidenti tərəfindən bir çox sərəncamlar imzalanmışdır. Azərbaycan Prezidentinin 2019-cu il 29 yanvar tarixli fərmanı ilə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Azərbaycan Prezidenti 2018-ci ildə Azərbaycanın bölgələrinə 24 səfər etmişdir.

Məlumdur ki, regionların iqtisadiyyatı əsasən aqrar sahə ilə bağlıdır. Ötən il kənd təsərrüfatı sahəsində çalışanlara 370,0 milyon manat məbləğində subsidiya və güzəştlər verilmişdir. Prezident İlham Əliyevin göstərişi ilə ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük, çayçılıq, sitrus meyvəçiliyi, çəltikçilik və arıçılığın dirçəldilməsi, fındıq, badam, xurma, zeytun, nar bağlarının genişləndirilməsi istiqamətində görülən işlər ölkənin ixrac potensialını əhəmiyyətli dərəcədə artırmışdır.

### Enerji-nəqliyyat layihələrinin regional və beynəlxalq əhəmiyyəti

Azərbaycanın yaxından iştirak etdiyi nəhəng transmilli layihələrin reallaşması Avrasiyanın enerji və nəqliyyat xəritəsində ciddi dəyişikliklər yaratmışdır. 2018-ci il mayın 29-da "Cənub qaz dəhlizi"nin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi olmuşdur. Bu layihələrin həyata keçirilməsi Azərbaycanın regionda və Avropada geoiqtisadi əhəmiyyətinin artmasında, Qərb ölkələri ilə münasibətlərin daha yüksək pilləyə qalxmasında vacib əhəmiyyət daşıyır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində də böyük işlər görülmüşdür. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda Ələt-Astara-İran İslam Respublikası magistral avtomobil yolu istifadəyə verilmişdir. Ümumiyyətlə, respublika üzrə 2018-ci ildə 2 min kilometr avtomobil yolu çəkilmişdir.

Sosial-mədəni xidmət sahələrinin və təsərrüfat infrastrukturunun inkişafı

Ötən bir il ərzində ölkənin sosial-mədəni xidmət sahələrində və təsərrüfat infrastrukturunda mühüm yeniliklər baş vermişdir. Tarixi bina, muzey, teatr və kitabxanalarda yenidənqurma işləri davam etdirilmiş, ölkənin bütün ali təhsil ocaqları, həmçinin AMEA-nın nəzdində olan institut və müəssisələr təmir edilərək yeni avadanlıqla təchiz olunmuşdur. 2018-ci ilin avqust ayında Böyük Britaniyanın müxtəlif aviaşirkətlər və aeroportlar tərəfindən göstərilən xidmətin keyfiyyətini öyrənmək üzrə ixtisaslaşmış nüfuzlu özəl konsaltinq şirkəti "Skytrax" beşulduzlu hava limanlarının reytinqini müəyyənləşdirmişdir. Reytinqə görə, Bakının Heydər Əliyev Beynəlxalq Aeroportu dünyanın beşulduzlu 9 əsas hava limanı siyahısına daxil olmuşdur. 2018-ci ilin sentyabrında isə Azərbaycanın daha bir telekommunikasiya peyki "Azerspace-2" orbitə çıxarılmışdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə son 1 ildə ölkədə turizm sənayesinin formalaşdırılması, yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsi məqsədilə əsaslı islahatlar və mühüm tədbirlər həyata keçirilmişdir. Turizm və dövlət qoruqlarının ərazilərində yerləşən tarix və mədəniyyət abidələrinin qorunması sahəsində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə 2018-ci ilin sentyabr ayında Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi yaradılmışdır. Əlverişli biznes və investisiya mühiti nəticəsində Bakıda və regionlarda yüksək standartlara cavab verən turizm müəssisələri fəaliyyətə başlamışdır.

2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyinin İmişli rayonunda və Şəki şəhərində yeni mərkəzləri istifadəyə verilmiş, 2019-cu ildə isə regionlarda bu cür 5 mərkəzin fəaliyyətə başlaması nəzərdə tutulmuşdur. Prezident İlham Əliyev 2018-ci ilin avqustunda əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyini (DOST) yaratmışdır.

Milli maraqlara söykənən xarici siyasətin və ordu quruculuğunun uğurlu nəticələri

Ötən bir il ərzində beynəlxalq tədbirlər çərçivəsində və eyni zamanda, Azərbaycana edilən səfərlər, ikitərəfli formatda aparılan danışıqlar nəticəsində ölkəmizin dünya birliyində nüfuzu daha da artmışdır. Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasətin sayəsində Azərbaycanın dünya dövlətləri və beynəlxalq güc mərkəzləri ilə səmərəli, işgüzar və bərabərhüquqlu münasibətləri daha da möhkəmlənmişdir. Prezident İlham Əliyev təkcə 2018-ci ildə xarici ölkələrə 16 səfər etmiş, xarici ölkələrin 16 dövlət və hökumət başçısı isə Azərbaycana səfərə gəlmişdir. Hazırda Azərbaycanla Avropa İttifaqı arasında yeni tərəfdaşlıq sazişinin imzalanması üzərində iş gedir. Tərəflər arasında müxtəlif istiqamətlər üzrə əlaqələrin möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanlar açan bu sənədin bu il imzalanacağı gözlənilir. 2018-ci ilin avqust ayında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması ölkəmizin maraqlarına tam cavab verməklə, onun dənizdə həyata keçirdiyi karbohidrogen hasilatı ilə bağlı layihələrinin, eləcə də digər növ təsərrüfat-iqtisadi fəaliyyətlərinin davamlılığını və təhlükəsizliyini təmin edir.

Prezident İlham Əliyev xarici ölkələrin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın prinsipial mövqeyini onların diqqətinə çatdırmışdır. Bu istiqamətdə aparılan qətiyyətli və prinsipial siyasət nəticəsində Ermənistanın yeni rəhbərliyinin danışıqlardan yayınmaq, danışıqların formatının dəyişdirilməsi cəhdlərinin qarşısı alınmışdır. Keçən dövr ərzində nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi sənədlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə xüsusi diqqət yetirilmişdir. 2018-ci il iyulun 11-də Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlığın prioritetlərinə dair imzalanmış sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər də öz əksini tapmış, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək, hörmət ifadə olunmuşdur. 2018-ci ilin iyul ayında NATO-nun Brüssel Zirvə görüşündə qəbul edilmiş yekun bəyannamədə də Azərbaycanın ərazi bütövlüyü dəstəklənmişdir. Ötən il Bakıda Qoşulmama Hərəkatının xarici işlər nazirləri səviyyəsində böyük konfrans keçirilmişdir. Bu il isə paytaxtımızda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcək və Azərbaycan bu böyük təşkilata sədrlik edəcəkdir. Şübhəsiz, BMT-dən sonra dünyanın ikinci böyük təşkilatına sədrlik etmək Azərbaycanın nüfuzunu daha da artıracaq, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işinə müsbət təsir göstərəcəkdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür. Bütün bunların nəticəsidir ki, 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürülmüşdür. Ötən dövr ərzində ölkəmizin hərbi potensialının daha da gücləndirilməsi Azərbaycan Ordusunun dünya miqyasında güclü ordular sırasına daxil olmasında mühüm rol oynamışdır. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri 2018-ci ildə dünyada ən güclü 50 ordu sırasında yer tutmuşdur.

2018-ci il iyunun 26-da Bakı şəhərinin Azadlıq meydanında Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə təntənəli hərbi parad keçirilmişdir. 240-dan çox hərbi texnika, gəmi, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikaların nümayiş olunduğu parad Azərbaycanın Silahlı Qüvvələrinin maddi-texniki təchizat baxımından gücünü bütün dünyaya nümayiş etdirdi.

### Davamlı inkişaf və beynəlxalq təşkilatların, sosioloji sorğu mərkəzlərinin hesabatları

Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurlar Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilmişdir. 2018-ci il oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında isə Azərbaycan 10 ən islahatçı dövlət siyahısına daxil edilərək, 2018-ci ildə dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Hesabatda Azərbaycan 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə qalxmış, dünyanın bir çox ölkələrini geridə qoyaraq Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqe tutmuşdur. Davos İqtisadi Forumunun "Qlobal Rəqabətlilik 2019" hesabatına əsasən, Azərbaycan 140 ölkə arasında "Dövlət tənzimlənməsinin yükü" altindikatoru üzrə əvvəlki illə müqayisədə 3 pillə irəliləyərək 12-ci yeri tutmuşdur. Bu forumun hesablamalarına görə, Azərbaycan infrastrukturun inkişafı üzrə dünya ölkələri içərisində 30-cu yeri tutur.

Dövlətin və cəmiyyətin bütün sahələrini əhatə edən dəyişikliklərin baş verdiyi ötən bir il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənmiş, ona ən güclü dayaq olmuşdur. Azərbaycan Prezidentinin apardığı daxili və xarici siyasət kursu, həyata keçirdiyi islahatlar xalqımız tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Bu fikri Fransanın "Opinion Way" şirkətinin 2019-cu ilin mart ayında Azərbaycanda keçirdi rəy sorğusunun yekunları da təsdiq edir. Təşkilatın Naxçıvan Muxtar Respublikası istisna olmaqla, ölkənin bütün bölgələrində apardığı sorğularda respondentlərin 85,1%-i Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri müsbət qiymətləndirdiyini bildirmişdir.

"Opinion Way"in "Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatları necə qiymətləndirirsiniz" sualına sorğuda iştirak edənlərin 90,5%-i müsbət cavab vermişdir. Rəyi soruşulanların mütləq əksəriyyəti, 80%-ə qədəri Prezident İlham Əliyevin öz seçkiqabağı vədlərini tam yerinə yetirdiyi qənaətindədir.

Göründüyü kimi, Azərbaycan Prezidenti İlham Əliyev yeni prezidentliyi dönəminin ilk ilində həyata keçirdiyi düşünülmüş və məqsədyönlü siyasətlə ölkəmizin inkişafı, xalqımızın əmin-amanlıq şəraitində yaşamasının təmin edilməsi üçün verdiyi bütün vədləri vaxtında və yüksək səviyyədə yerinə yetirmişdir. Azərbaycanın əldə etdiyi uğurlar xalqımızın bir il bundan əvvəl keçirilən prezident seçkilərində cənab İlham Əliyev kimi uzaqgörən siyasi lideri dəstəkləməklə düzgün mövqe tutduğunu bir daha sübut edir.

*Əli Həsənov,*
*tarix elmləri doktoru, professor*

# Azərbaycanın sosial-iqtisadi inkişafı dinamik xarakter daşıyır



*Milli Məclisin deputatı Sevinc Hüseynovanın yap.org.az-a müsahibəsi*

**- Sevinc xanım, məlum olduğu kimi, bugünlərdəKürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksinin istifadəyə verilib.Azərbaycanda qaçqın və məcburi köçkünlərə dövlət qayğısı haqında fikirlərinizi bilmək istərdik...**

- Qaçqın və məcburi köçkünlərə qayğı Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Aprelin 5-də Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksinin istifadəyə verilməsi də bu qayğının ifadəsidir. Qeyd edim ki, Prezident İlham Əliyev müəyyənləşdirdiyi strateji kursa uyğun olaraq respublikamızda qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənirlər. Bu sırada da qaçqın və məcburi köçkünlər, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələri ön sırada dayanırlar. Çünki qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli daim dövlətin, şəxsən Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Ötən illər ərzində ölkəmizdə qaçqın və məcburi köçkünlərin problemlərinin həlli məqsədilə müxtəlif proqramlar reallaşdırılıb.

Prezident İlham Əliyev qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə xüsusi qayğı ilə yanaşır, bu məsələni daim diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edib. Son illərdə qaçqınlar və məcburi köçkünlər üçün bütün zəruri infrastrukturla təchiz olunmuş qəsəbələr salınıb, çoxmərtəbəli binalar inşa olunub. Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının təmini, sosial durumlarının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir.

Bilirsiniz ki, bu istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi oldu. Bu faktlar bir daha dövlətimizin bu məsələlərə xüsusi diqqətini göstərir. Xatırladım ki, ötən il dekabrin 24-də Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün, dekabrın 27-də isə Sumqayıt şəhərində 1005 qaçqın və məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksi istifadəyə verilməsi də bu sahədə görülən işlərin uğurlu davamıdır. Bütün bunlarla yanaşı Azərbaycan Prezidentinin məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətlərin artırılması ilə bağlı Sərəncamına əsasən məcburi köçkünlərə ödənilən vəsaitin həcmi 50 faiz artırılıb.

Qaçqın və məcburi köçkünlər inanırlar ki, Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində torpaqlarımız işğaldan azad olunacaq və bu tipli quruculuq işləri həmin torpaqlarda aparılacaq.

**-Son vaxtlar ölkəmizdə sosial sahədə də mühüm addımlar atılmaqdadır. Bu fakt Azərbaycanı sosial dövlət kimi necə səciyyələndirir?**

-Bilirsiniz ki, Azərbaycan ötən illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanıb. Ölkəmizin maliyyə imkanlarının güclənməsi istər regionların sosial-iqtisadi inkişafı, istərsə də insanların sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində layihələrin reallaşdırılmasına da imkan verib. Cənab Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır. Ümumiyyətlə, Azərbaycanın sosial-iqtisadi cəhətdən inkişafı dinamik xarakter daşıyır. Davamlı olaraq islahatların həyata keçirilməsi inkişaf proseslərini daha da gücləndirir. Fevralın 25-də Azərbaycan Prezidenti İlham Əliyevin yanında keçirilən iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə də qeyd olunduğu kimi, artıq ölkəmizdə 2017-ci ildə iqtisadi sabitliyin təmin olunması ilə bağlı atılan önəmli addımlar, həmçinin 2018-ci ildə ardıcıl şəkildə həyata keçirilən ciddi islahatlar öz müsbət nəticələrini verir.

Vətəndaşların rifahının daha da yüksəldilməsi, qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin diqqət mərkəzindədir. Ölkə Prezidenti cənab İlham Əliyevin verdiyi qərarlar vətəndaşların maraqlarına xidmət edir. Respublikamızda inklüzivliyin təmin olunması, əhaliyə göstərilən xidmətlərin əlçatanlığının və keyfiyyətinin artırılması və beləliklə də, vətəndaş məmnunluğunun təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, sosial infrastruktur quruculuğuna getdikcə daha böyük həcmlərdə maliyyə vəsaiti yönəldilir. Ölkəmizdə 2019-cu ilin əvvəlindən sosial sahədə bilavasitə insanların rifah halının yaxşılaşmasına hədəflənən tədbirlərin reallaşdırılması daha da intensivləşib. Bu sahədə atılacaq addımlar cənab Prezident tərəfindən hələ ötən il müxtəlif tədbirlərdə anons edilib və hazırda vaxtilə verilən vədlərin uğurla reallaşdırılması prosesi gedir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaq. Bu və digər faktlar Azərbaycan dövlətinin sosial siyasətinin davamlı səciyyə daşıdığı barədə konkret təsəvvür yaradır. Ümumiyyətlə, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə, qaçqın və məcburi köçkünlərə qayğı, minimum əməkhaqqının, minimum pensiyanın və sosial müavinətlərin artırılması istiqamətində görülən işlər, problemli kreditlərin həll olunması dövlətin öz vətəndaşlarına olan qayğısının təzahürüdür. Bütövlükdə, 3 milyona yaxın insan dövlətin sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanacaq. Azərbaycan dövlətinin yürütdüyü dərinməzmunlu sosial siyasət, həqiqətən də, inqilabi xarakter daşıyır. Bu, ilk növbədə, cənab Prezidentin, Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının əyani nümunəsidir.

**-Sevinc xanım, siz parlamentin Gənclər və idman komitəsinin üzvünüz. Bu yaxınlarda "Gənclər siyasəti" haqqında qanuna edilən dəyişikliklərin əhəmiyyəti nədən ibarətdir?**

- Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan gəncliyi cəmiyyətin aparıcı qüvvəsidir. Ölkəmizdə gəncliyin inkişafı üçün sistemli olaraq tədbirlər görülür, o cümlədən qanunvericilik aktları təkmilləşdirilir.

Bilirsiniz ki, bu yaxınlarda Milli Məclisdə "Gənclər siyasəti haqqında" qanuna önəmli dəyişikliklər edilib. Qəbul olunmuş yeni sənəddə mühüm məsələlər əksini tapır. Sənəddə gənclər siyasətinin məqsəd və prinsipləri, gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı, onların sağlamlığının qorunması və fiziki inkişafı, məşğulluğunun təmin edilməsi, gənc ailələrə, gənclər təşkilatlarına dövlət yardımı, gənclər siyasətinin həyata keçirilməsinin maddi və maliyyə təminatı ilə bağlı maddələrə bir sıra vacib əlavələr edilib. Eyni zamanda, aztəminatlı gənc ailələrin sosial müdafiəsi, onların mənzil təminatın yaxşılaşdırılması və bu məqsədlə güzəştlərin tətbiq olunması, gənc alim və tədqiqatçıların elmi fəaliyyətinin dəstəklənməsi, sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərin təhsil problemlərinin həlli və asudə vaxtlarının səmərəli keçirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi məsələləri qanunda əks olunub. Digər vacib bir məqam isə gənc ailələrin mənzil təminatı ilə bağlı müddəadır. Gənclərimiz bu gün milli mənəvi dəyərlərimizin qorunması və təbliğində vacib rol oynayırlar. Bu məsələ də sənəddə əks olunub. Belə ki, 18 yaşınadək gənclərin mənəvi-əxlaqi tərbiyəsinin təmin edilməsi və sağlam gəncliyin formalaşdırılması məsədilə onlara tütün məmulatlarının, spirtli və energetik içkilərin satışına yol verilməyəcək.

Bütün bunlarla yanaşı qanunda edilən mühüm yeniliklərdən biri risk qrupunda olan gənclərin sosial adaptasiyası üçün tədbirlərin həyata keçirilməsi, risk qrupunda olan gənclərlə könüllülər arasında qarşılıqlı yardım qruplarının təşkil edilməsidir. Eləcə də, sahibkar gənclərə də dövlət dəstəyinin gücləndirilməsi də sənəddə öz əksini tapır. Bütövlükdə yeni qəbul olunmuş sənəd dövlət gənclər siyasətinin hüquqi bazasını daha da təkmilləşdirir. "Gənclər siyasəti haqqında" qanuna edilən dəyişikliklər Azərbaycan gəncliyinin hərtərəfli inkişafına yeni töhfələr verəcək.

# YAP Səbail GB-nın V Hesabat-seçki konfransı keçirilib

Dünən Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatı Gənclər Birliyinin V Hesabat-seçki konfransı keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbiri giriş sözü ilə YAP Səbail rayon təşkilatının sədri, millət vəkili Şəmsəddin Hacıyev açaraq konfransın əhəmiyyətindən danışıb. O gəncləri ölkəmizin ictimai-siyasi həyatında daha fəal olmağa çağırıb, onlara uğurlar arzulayıb.






O bildirib ki, ötən müddətdə gənclərimizin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə onların xidmətlərinin qiymətləndirilməsi və bütövlükdə dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib.

Daha sonra Azərbaycanda gənclər siyasətinin uğurla həyata keçirilməsi haqqında videofilm nümayiş olunub. YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədri Rəşad Fərəcov tərəfindən IV konfransdan keçən müddət ərzində görülən işlər barədə hesabat məruzəsi səsləndirilib. Hesabat məruzəsi ətrafında isə YAP Gənclər Birliyinin sədr müavini Samirə Quliyeva, YAP GB Ofisinin koordinatoru Elmar Məmmədov, Qərbi Kaspi Universitetinin tələbəsi Fuad Heydərli çıxış ediblər.

"Azərbaycanda gənclər siyasəti prioritet istiqamətlərdən biridir. Ölkə başçısı bu sahəyə xüsusi diqqət ayırır. Sabitlik, təhlükəsizlik tədbirləri ən yüksək səviyyədə həyata keçirilir. Təhlükəsizlik və stabillik olmadan heç bir inkişafdan danışmaq mümkün deyil". Bu fikirləri isə konfransda çıxışı zamanı Milli Məclisin Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev deyib. Onun sözlərinə görə, daxili siyasət sırf vətəndaş amili ilə bağlıdır: "Xalqımızın rifah halının yüksəldilməsi, layiqli həyat səviyyəsi ilə təmin olunması istiqamətində çox böyük işlər görülür. Xarici siyasətimiz də daxili siyasətimizin davamı olaraq milli və dövlət maraqlarına bağlıdır. Qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq prinsipi əsasında qonşu dövlətlərlə, o cümlədən Avropa dövlətləri ilə, müsəlman dövlətləri ilə əməkdaşlığımız möhkəmlənir. Prezident İlham Əliyevin rəhbərliyi altında bu işlər yüksək səviyyədə həyata keçirilir".

Konfransda çıxış edən YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı YAP Səbail rayon təşkilatı Gənclər Birliyinə uğurlar arzulayıb. M.Qurbanlı bildirib ki, YAP bu gün nəinki Azərbaycanın, eləcə də Cənubi Qafqaz regionunun ən böyük siyasi təşkilatıdır. "Bu isə özlüyündə həmin böyük qüvvənin gənclər qurumu olaraq YAP Gənclər Birliyinin, o cümlədən, YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin üzvlərinin üzərinə əlavə məsuliyyətlər qoyur. Çünki Azərbaycanın hədəfləri böyükdür və hədəflərə çatmaq naminə gənclərimizin bütün imkanlarını səfərbər etməlidirlər. Partiyamızın sıralarında yüksək intellektli gənclər birləşiblər ki, onlar üzərlərinə düşən vəzifələri yerinə yetirməyə qadirdirlər. Sevindirici haldır ki, ölkə gəncliyi birmənalı olaraq Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyirlər"- deyə, YAP İcra katibinin müavini vurğulayıb.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu və Səbail Rayon İcra Hakimiyyətinin başçısı Vüqar Zeynalov isə Azərbaycan dövlətinin gənclərə göstərdiyi yüksək diqqət və qayğıdan, Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, ölkəmizin sosial-iqtisadi, ictimai-mədəni, eləcə də idman həyatında gənclərin uğurlarından danışıblar. Çıxışlarda, həmçinin Səbail gənclərinin də ölkəmizin ictimai həyatında fəal iştirakından danışılıb, bu baxımdan Gənclər Birliyi üzvlərinin rolu yüksək qiymətləndirilib.

Konfransda təşkilati məsələlərə də baxılıb və Ayxan Həsənov YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin yeni sədri seçilib.

***Ceyhun Rasimoğlu***

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

13 aprel 2019-cu il

# Ermənilərin porno ulduza ümidləri rəzalətdir

***Tarix boyu müxtəlif tərzdə terror aktları və bir çox müsəlman ölkələrində qətllər törədən, ələlxüsus, türk millətinə qarşı soyqırımı siyasəti yürüdən, türk milli mənsubiyyətinə məxsus olan günahsız insanların qırğınına imza atan ermənilər özlərini dünya ictimaiyyətinə məzlum, yazıq, haqları tapdalanmış, əzilmiş kimi qələmə verməyə çalışırlar. Erməni simasızlığı, o həddə çatıb ki, terrorçu, separatçı özləri olduqları halda, ermənilər özlərinin soyqırıma məruz qaldıqlarını, nəinki iddia edirlər, bütün dünya ictimaiyyətinin bu qondarma soyqırımı tanımasını da istəyirlər.***



Əslində, soyqırımı siyasətinin ermənilərə məxsus olduğu dəfələrlə sübut olunub. Bu, BMT-nin qətnamələrində, beynəlxalq təşkilatların işğalçı ölkə qarşısında qoyulan tələblərində öz əksini də tapır. Ermənilərin işğalçılıq siyasəti, Dağlıq Qarabağda azərbaycanlılara qarşı törədilən qətllər, etnik təmizləmə siyasəti dünya ictimaiyyəti üçün sirr deyil. Təkcə Xocalıda ermənilər tərəfindən törədilən faciə, insanlıq dramı bütün bəşəriyyətin ən acı faciəsi hesab olunur və bunu bütün dünya ictimaiyyəti çox gözəl bilir. Erməni işğalçılarının terrorçuluq əməlləri bununla bitmir və bu əməllərin tarixi hələ ötən əsrlərə də təsadüf edir. Təkcə Azərbaycanda deyil, Türkiyədə də törətdikləri qətllər, soyqırımlar tarixin qan yaddaşına həkk olunub və bütün bunlar ermənilərin işğalçı, terrorçu və separatçı simalarının ifşası üçün yetərlidir.

Erməni xisləti, ermənilərin özlərinin terrorçu və separatçı simaları bütün dünyaya bəlli olmasına baxmayaraq, işğalçılar hələ də dünya ictimaiyyətinin onların soyqırımı uydurmalarına inanacağına, bunu qəbul edəcəyinə ümid bəsləyirlər və qəbul etdirməyə də çalışırlar. Hətta bu uydurmanı qəbul etdirmək üçün tarix boyu müxtəlif çirkin vasitələrə də əl atdıqları gizli deyil. Bu vasitələrin böyük əksəriyyəti isə nə əxlaq normalarına, nə insanlıq şərəfinə, nə də etik qaydalara sığmır.

Ermənilər qondarma soyqırımlarının daha çox fövqəldövlətlər tərəfindən qəbul olunması üçün əldən-ayaqdan gedirlər. Çünki bu dövlətlərin təsir mexanizminin olacağına, təsiretmə imkanlarının genişliyinə ümid bəsləyirlər. Hər zaman rusların ayaqlarına döşənən, bütün mövcudluğu dövründə Rusiyadan asılı olan və onlara bu xüsusda da yardım edilməsini diləyən ermənilər, artıq bu fövqəldövlətin onlara zərrə qədər etibarının qalmamasına əminliyi bir reallıqdır. Ruslar ermənilərin simasına, daha doğrusu, simasızlığına dəfələrlə şahid idilərsə, "məxməri inqilab"dan, daha doğrusu, Ermənistanda son hadisələrdən, yəni əslində, nümayişçi Paşinyanın dövlət çevrilişindən sonra bu simasızlıqlarına, etibarsızlıqlarına tamamilə əmin oldular ki, bunu erməni cəmiyyəti də əzbər bilir. Əzbər bilir ki, artıq ruslardan əlləri üzülüb və Ermənistan meydanda tənha qalmış vəziyyətdədir.

### Ermənilərin qadın porno ulduzdan da istifadə edəcək qədər aşağılanmanı qəbul edəcəklərinə erməni xislətli, erməni əsilli Speyer əmindir

Birləşmiş Ştatlarda ermənilər uzun müddətdir ki, təbliğatla məşğuldurlar və bu ölkədə özlərinin erməni icması da fəaliyyət göstərir. Ermənilər, yaxud erməni əsillilər, nəyin bahasına başa gəlməsindən asılı olmayaraq, Konqresdə də özlərini, öz simasızlıqlarını göstərməkdədirlər. Məqsəd isə yalnız birdir və o da, doğru olmayan erməni həqiqətlərini, qondarma soyqırımı aktını dünyaya sırımaq niyyətidir.

Amerikanın Erməni Milli Komitəsi (ANCA) məlumat verib ki, Vaşinqtonda yerləşən Konqres binasında erməni soyqırımına həsr olunmuş tədbir keçirilib. Tədbirin gedişində qadın konqresmen Ceki Speyer öz çıxışında bəyan edib ki, Trampa erməni soyqırımını qəbul etməyə və mühakimə etməyə dəvət edən məktub göndərməyə hazırlaşır. Ermənistana məxsus "tert.am" saytında yayımlanan məlumatda qeyd olunur ki, Kim Kardaşyanı nəzərdə tutaraq, ehyam vuran erməni əsilli qadın konqresmen Ceki Speyer "Trampın soyqırımını tanımasına təsir göstərmək üçün ermənilərin gizli bir silahı var" deyib.

Erməni əsilli qadın konqresmen onu da bildirib ki, Birləşmiş Ştatların erməni icması ABŞ hakimiyyətinin erməni soyqırımını qəbul etməsi üçün az güc sərf etməyib. Speyer, hətta ona da ehyam vurub ki, əgər Kim Kardaşyan erməni icmasına qatılarsa, o zaman, bu, nəticə verə bilər. "Bu xüsusda erməni icmasının gizli bir silahı var. "Twitter-də olan Kim Kardaşyanın Trampı erməni soyqırımını tanımağa çağırması lazımdır" deyən Speyer bunu gülərək ifadə edib.

Görünür, ermənilərin pornoulduz Kim Kardaşyana möhtac halı erməni əsilli qadın konqresmendə belə istehzalı gülüşə səbəb olub. Çox güman ki, ermənilərin bu yola da əl atacaq, erməni əsilli qadın porno ulduzdan da istifadə edəcək qədər aşağılanmanı qəbul edəcəklərinə erməni xislətli, erməni əsilli biri kimi Speyer əmindir. Məhz buna görə erməni əsilli qadın konqresmen, "ermənilərin gizli bir silahı var" dedikdə, istehzalı gülüşünü belə saxlaya bilmir və həqiqətən də, pornoulduz Kim Kardaşyana olan son erməni ümidi əsl rəzalətdir.

### Erməni icmasına və bütövlükdə, ermənilərə "gizli erməni silahı" nə ilə və ya nəyi ilə xidmət edə bilər?

Ermənilərin məqsədlərinə nail olmaq, yalanlarını sırımaq, özlərini, haqsız ola-ola, haqlı çıxarmaq üçün hər vasitədən, ən çirkin əməllərdən istifadə etməsi birinci dəfə deyil. Heç axırıncı dəfə olacağına da zərrə qədər ümid yoxdur. Dünya ictimaiyyəti dəfələrlə şahidi olub ki, erməniləri özlərinin bəşər tarixində misli görünməyən cinayətlərinə don geydirmək üçün qadınlarından belə çirkin niyyətlə istifadə ediblər. Rus generallarının, hərbçilərinin və səlahiyyətlilərinin ayaqları altına ermənilər erməni qadınlarını atmaqdan da çəkinməyiblər.

Erməni əsilli qadın konqresmen Speyerin dediyi bu Kim Kardaşyan kimdir? Nə ilə məşhurdur və ermənilər bu erməni əsilli Kardaşyanın nəyi ilə fəxr edirlər? Yaxud erməni icmasının bu "fəxr etdiyi", ona ümid etdiyi qadından gözləntiləri nədir? Kim Kardaşyan deyilən bu erməni əsilli qadın hansı fəaliyyəti ilə erməni icmasına yararlı ola biləcək və nə kimi iş görəcəyi, həqiqətən, böyük maraq doğurur.

Maraqlıdır, bu erməni əsilli qadının, Twitterdə olan Kim Kardaşyanın Trampı erməni soyqırımını tanımağa çağırması imkanlarından erməni icmasının silah kimi istifadə etməsini dünya ictimaiyyəti necə başa düşməlidir? Kim Kardaşyanı nəzərdə tutaraq "ermənilərdə gizli bir silah var" deyən erməni əsilli Ceki Speyer "bu silahın" hansı "imkanlarını" nəzərdə tutur? Yaxud bu "gizli erməni silahı" erməni icmasına və bütövlükdə, ermənilərə nə ilə, və ya nəyi ilə xidmət edə bilər?

Göründüyü kimi, erməni icması öz müqəddəratını, qondarma erməni soyqırımının qəbul edilməsini pornoulduza həvalə etməkdən də çəkinməz. Sözsüz ki, belə bir olay olmayıb, amma yalandan belə olsa, dahi soyqırımı kimi həssas bir məqamın Kim Kardaşyana - köhnə peşə sahibinə həvalə edilməsi niyyət olaraq belə rəzalətdir. Özü də nəzərə almaq lazımdır ki, bu rəzaləti etiraf edən erməni əsilli qadın konqresmendir və ən acınacaqlı hal budur ki, bu konqresmen belə ermənilərin "gizli silahı" barədə danışarkən, istehzalı gülüşünü gizlədə bilmir.

**İnam HACIYEV**

## "Müxalifət Leyla Yunus kimilər qarşısında özlərini itiriblər"

"Bu gün müxalifət düşərgəsində partiya sədrləri deyil, Leyla Yunus və Xədicə İsmayıl əsas rolda çıxış edirlər. Belə bir görüntü yaranır ki, sanki müxalifətin ənənəvi simaları İ.Qəmbər, Ə.Kərimli, A.Hacılı və digərləri siyasiləşmiş QHT rəhbərləri qarşısında mövqelərini tamamilə itiriblər". Bunu SİA-ya açıqlamasında "Yurddaş" partiyasının sədri Mais Səfərli deyib. Partiya sədrinin sözlərinə görə, bu gün müxalifətdə L.Yunus kimilərinin əsas aparıcı rolda çıxış etməsi dağıdıcı müxalifətin nə durumda olduğunun bir göstəricisidir: "Normal müxalifət partiyalarına partiya sədrləri rəhbərlik etməlidir, başqaları yox. Müxalifət partiya sədrləri partiya işləri ilə məşğul olmalıdırlar, başqa işlərlə yox. Amma biz bunların tamamilə əksini görürük. Yəni müxalifət partiya rəhbərləri partiyaların normal şəkildə fəaliyyətindən çox, hardan daha çox maliyyə vəsaiti əldə etmək kimi məsələlərə üstünlük verir. Belə olan halda da, həmin müxalifət partiyalarının heç bir irəliləyişindən söhbət gedə bilməz. Yəni bu şəxslər üçün partiya maraqları yox, özlərinin şəxsi maraqları daha çox üstünlük təşkil edir. Əgər hansısa xarici qüvvələr tərəfindən hansısa bir formada bu şəxslərə maliyyə yardımları edilərsə, həmin maliyyə yardımları edən qüvvələr bunun qarşılığında nə isə istəyirlər. Onların bu istəkləri isə ölkəmizdə qarşıdurma yaratmaqdır. Bir sözlə, xarici qüvvələrin müxalifət təmsilçilərindən bir vasitə kimi istifadə etmələri, Azərbaycanda məkrli istəklərini həyata keçirməkdir. Lakin onların bu istəkləri heç vaxt reallaşmayacaqdır. Çünki Azərbaycan güclü bir dövlətdir və xalqımız yaxşını pisdən ayırmağı bacarır".

M.Səfərli əlavə edib ki, hər zaman müxalifət düşərgəsini təmsil edən qüvvələr reallığı özündə əks etdirməyən xəyyaları gerçəkləşdirmək istəsələr bu, baş tutmur: "Müxalifət partiya sədrlərinin bir-birilərinin əleyhinə çevrilmiş qarşıdurmaları onların bir araya gəlmələrinə imkan vermir. Xüsusilə də, müxalifət liderlərinin bir-birinə güzəştə getməmələri və öz ambisiyaları ilə çıxış etmələri onların dağınıq vəziyyətə düşmələrinə gətirib çıxarıb. Elektoratını itirmiş, seçkilərdə uduza-uduza gələn müxalifət yalnız və yalnız öz fəaliyyətinin məğzini iqtidarın uğurlu fəaliyyətinə kölgə salmaqda görür. Bu da onları cəmiyyətin gözündən tamamilə salır. Bir sözlə, artıq müxalifət partiyaları iflasa uğrayıb. Belə olan halda da, bu boşluğu bu gün ipləri müəyyən xaricdəki siyasi dairələrin əllərində olan QHT-lər və ayrı-ayrı şəxslər doldurmağa çalışırlar".

***Ceyhun Rasimoğlu***

*Artıq bir neçə gündür ki, ölkə ictimaiyyəti 162 saylı tam orta məktəbdə özünü pəncərədən ataraq, canına qəsd edən 14 yaşlı Elinadan danışır. Əslində, Elinanın intihar nəticəsində həyatını itirməsi və bu hadisədən doğan gerçəkliklər hər kəsi ciddi tərzdə düşündürməli və narahat etməlidir. Çünki Elinanın nakam taleyi bu gün onun kimi həssas yaş dövrü yaşayan digər Elinaların da başlarına gələ bilər. Bəs nə etməli, belə hadisələrin qarşısının alınması üçün hansı tədbirlər görülməlidir? Bu gün ölkədə təhsil sahəsi üzrə kifayət qədər ictimai birlik və təşkilatlar fəaliyyət göstərirlər və deyə bilərik ki, onların hamısı deyil, müəyyən qədəri qarşılarına qoyduqları məqsədləri üçün çalışırlar. Misal üçün, məktəblərdə, digər təhsil müəssisələrində müəyyən layihələr həyata keçirir, yeniyetmə və gənclərlə işlər aparırlar. Amma təəssüf ki, bu da yetərli deyil...*

# Elina və Elinaların taleləri...

## *Cəmiyyət nə etməlidir?*



### Direktor öz mövqeyini qorumaq üçün azyaşlı uşaqlardan istifadə edib!

Elinanın ölümü ətrafında ən ağrıdıcı fakt, 162 saylı tam orta məktəbin artıq işindən uzaqlaşdırılmış direktorunun hadisə günü və sonrakı günlər mərhum qızcığaz haqqında yaydığı söz-söhbətlər və bu söz-söhbətləri onun sinif yoldaşlarına (?!-R.N.) zorla, məcburi şəkildə dedirtməsidir. Direktor burada öz mövqeyni qorumaq üçün, hətta azyaşlı uşaqları da alət edib ki, buna hansı qiymətin veriləbiləcəyini elə ictimai rəy özü müəyyənləşdirməlidir.

Düzdür, Elinanın valideynləri ayrılıblar və 13-14 ildir ki, bir yerdə yaşamırlar. O cümlədən, yenidən ailə quraraq, həyatlarını davam etdiriblər. Burada hər hansı bir qəbahət də yoxdur. Çünki direktor öz adamları vasitəsi ilə, məhz bu məsələni önə çıxararaq, qızcığazın intiharını "tərbiyəsiz ailə" ittihamı ilə əlaqələndirməyə cəhdlər göstərdi. Bununla bağlı səs yazısı da ictimailəşdirildi və nəticədə, bu cəhd baş tutmadı. Alınmadı ona görə ki, istər Elinanı, tanıyanlar, istərsə də onun anasını-atasını tanıyanlar bu iddiaları sübutlarla rədd etdilər. Bəlli oldu ki, Elina zaman-zaman atasının da, anasının da yanında qalıb və onun valideyn sarıdan heç bir problemi olmayıb.

### 14 yaş bir uşaq üçün çox həssas dövrdür və bu yaşda olan uşaqlara diqqət daha çox olmalıdır

Bu hadisənin digər təfərrüatlarını da araşdırarkən, problemn bilavasitə məktəb rəhbərliyində olduğunu kifayət qədər sübut etmək mümkündür. Məsələn, Elinanın sinif rəhbəri son zamanlar qızcığazın özünə qapandığını hiss edərək, bir neçə dəfə məktəb direktoruna müraciət edib, ancaq məktəbin rəhbəri bu müraciətlərə etinasız yanaşıb. Həmçinin, məktəbin psixoloqunun olduğu halda, qızcığazı onun yanına yönləndirməyiblər ki, bu da nəticə olaraq, intiharla sonunu tapıb. O cümlədən, valideynlərinə də heç bir xəbərdarlıq edilməyib. Çünki 14 yaş bir uşaq üçün çox həssas dövrdür və bu yaşda olan uşaqlara diqqət daha çox olmalıdır. Amma təəssüf ki...

Təəssüf ki, o məşum gündə Elina həyatı ilə vidalaşdı və...

Vidalaşması ilə yanaşı, ola bilsin ki, digər təhsil müəssisələrində də bənzər halların yaşana biləcəyi "SOS"-unu verdi. Ona görə də, yenidən qayıtmalı oluruq həmin məşum günə...

### Elinanın üzərindəki qanla yanaşı, düşdüyü ərazidən də həmin ləkələr yuyulub

Elina intihar etdikdən sonra, 162 saylı tam orta məktəbin direktoru bu hadisəni amansızcasına gizlətməyə cəhd göstərib. Əbəs deyil ki, hadisədən sonra təcili yardım çağırılsa da, həkimlər məktəbə vaxtında çatsa da, artıq Elinanın üzərindəki qanla yanaşı, düşdüyü ərazidən də həmin ləkələr yuyuldu. Halbuki cinayət hadisəsi baş verib və onun baş verdiyi ərazi hüquq-mühafizə orqanları tərəfindən nəzarətə götürülür. Məgər direktor bunu bilmirdimi? Əlbəttə ki, bilirdi. Sadəcə, baş vermiş cinayəti, əlində olan direktorluq imkanlarından istifadə edərək, gizlətməyə çalışdı. Üstəlik, hadisə barədə xəbər valideynlərinə qızcığaz xəstəxanaya çatdırıldıqdan sonra verildi. Faktlar çoxdur və bu faktları incələdikcə, təfərrüatların da sayı artır. Fəqət, bir əsas fakt özünü öndə saxlayır - əgər sənə böyük bir məktəbin rəhbərliyi etibar edilibsə, sən bu etibardan niyə sui-istifadə etdin? Niyə imkan və şərait yaratdın ki, 14 yaşlı qızcığaz hələ həyatının böyük hissəsi - uşaq arzuları, gələcəyi barədə düşüncələri yarımçıq qalsın?

### Baş verənlər dövlət başçısının şəxsi nəzarətindədir!

Bu hadisə dövlət başçısının da xüsusi nəzarətinə götürülüb və söz yox ki, burada günahı olanlar mütləq cəzalarını alacaqlar. Ancaq Elina artıq geri dönməyəcək, məktəbinə getməyəcək, anasına və atasına doğru qucaq açmayacaq. Onun üçün hər şey bitib-əfsuslar olsun ki...

Bundan sonrasına gəldikdə isə, gərək cəmiyyət və sağlam düşüncəli insanlar Elinanın taleyinin digər Elinalarda da yaşanmaması üçün əllərindən gələni əsirgəməməlidirlər. İstər məktəbdə, istərsə də ailələrdə ciddi nəzarət, təlim-tərbiyə işləri prioritetlik təşkil etməlidir, uşaqların-övladların gələcəkləri naminə...

**Rövşən**



# Əli Kərimli müsyö, Arif Hacılı isə mister ola bilər

## *Corc Sorosun belə bir tapşırıq verdiyi bildirilir*

Zaman-zaman dağıdıcı müxalifətin anormal təmsilçiləri ölkəmizin uğurlarına kölgə salmaq üçün ən iyrənc metodlardan, vasitə və üsullardan istifadə edirlər. Nədi-nədi, Soros kimi qoca ser müxtəlif maxinasiyalar yolu ilə əldə etdiyi çirkli pullardan onlara da qəpik-quruş verir. Qarşılıqlı əməkdaşlıq, bir daha təsdiq edir ki, Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa çalışan, fəaliyyəti ilə hər zaman ölkəmizin nüfuzunu zədələməyə çalışan ifrat radikal müxalifət, əslində, anti-Azərbaycan şəbəkənin bir təmsilçisi kimi çıxış edir. Cəmiyyətdən özünü təcrid halına salmış dağıdıcı müxalifət, ölkəmizin rifahını istəməyənlər kimi, Azərbaycanda xaotik bir durumun formalaşmasını arzulayır, bu yöndə addımlar atmağa cəhd göstərirlər. Buna nail olmasalar da, iyrənc əməlləri ilə, əslində, Azərbaycanın ən qatı əleyhdarları ilə bir sırada yer aldıqlarını göstərmiş olurlar. Mövcud faktlara əsasən, demək olar ki, AXCP və Müsavat kimi dağıdıcı partiya funksionerləri bəzən xarici maraqlı dairələrlə iş birliyində olmalarını gizlətmirlər. Müəyyən işarələr və açıqlamaları ilə xarici fondlarla əməkdaşlıq münasibətləri qurduqlarını nümayiş etdirirlər. Sübut: Bir dəfə də olsun, Əli Kərimli, Arif Hacılı, İsa Qəmbər, Cəmil Həsənli və digər təşkilatların Azərbaycan dövləti haqqında yaydıqları şər və böhtan xarakterli qərəzli hesabatlarına əks-münasibət bildirməyiblər. Bu isə ehtimalları reallığa çevirir. Bəllidir ki, "Soros" fondu, "Freedom House", "Human Rights" sifariş əsasında konkret dövləti hədəfə alır, ənənəvi qərəzli tezislərdən istifadə etməklə, filan ölkədə insan hüquqları sahəsində və demokratik proseslərdə problemlərin olduğunu iddia edirlər. Beləcə, anormal fəaliyyət yolu tutmaqla, hesabatlar yayırlar.

### Müxalifət xəyanət yolu tutub

Corc Sorosun təsisçisi və rəhbəri olduğu "Soros" fondunun fəaliyyəti də hər kəsə bəllidir. Azərbaycan cəmiyyəti bu təşkilatın erməni lobbisinin əlində Azərbaycana qarşı bir istifadə olunan alət olduğunu çox yaxşı bilir. Ona görə də, Azərbaycan cəmiyyəti bu təşkilatın yaydığı hesabatları ciddi sənəd kimi qəbul etmir. Amma AXCP, Müsavat və "Milli Şura" rəhbərliyi bunun fərqində deyillər. İsa Qəmbər, Əli Kərimli, Arif Hacılı, Cəmil Həsənli kimi ünsürlər birbaşa xarici maraqlı dairələrin Azərbaycandakı əlaltıları rolunda çıxış etdiklərindən, xaric maraqlı dairələrin qərəzli hesabatlarına dəstək verirlər. Bəzən də, onlara Azərbaycanın iç məsələləri ilə bağlı dezinformasiya xarakterli informasiyalar çatdırırlar. Yəni açıq-aşkar satqınçılıq və xəyanət yolu tuturlar və pul əldə etmək üçün dövrədə olmaqla, Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı mübarizə metodu seçirlər. Göstərişə əsasən, onlar gah mitinqlər - küçə yürüşləri keçirir, gah da hədələyici bəyanatlarla çıxış edirlər. Baxmayaraq ki, bu ünsürlərin təşkil etdikləri mitinqlərə belə gələn olmur. Ancaq "Milli Şura" və Müsavat liderləri mitinq xəstəliyindən əl çəkmir və demək olar ki, hər həftə sonu, aksiya keçirmək arzusunda olduqlarını bəyan edirlər. Bəzən bu mitinqləri bir-birinin bəhsinə, bir-birinə meydan oxumaq məqsədi ilə planlaşdırırlar. Aprelin 6-na AXCP-"Milli Şura"nın, aprelin 7-nə Müsavat partiyasının mitinq planlaşdırmalarını göstərmək olar. Halbuki bir qədər əvvəl bu ünsürlər "bir olmaq", "birgə blok yaratmaq" kimi ideyalarla çıxış edirdilər. Ancaq məsələ əməli fəaliyyətə gələndə, fərqli mövqe nümayiş etdirdilər ki, bu, heç də təəccüblü görünmədi. Çünki müxalifət təmsilçiləri və onların tör-töküntüləri hər zaman dildə bir söz deyib, əməldə başqa mövqe ortaya qoyublar.

### Müxalifət liderləri özləri-özlərini ifşa edirlər

Yaxın keçmişdə olduğu kimi, bu gün də, keçirdikləri rüsvayçı mitinqləri zamanı qarşıdurma yaranarsa, Ə.Kərimli, A.Hacılı, C.Həsənli və digərləri hər kəsdən öndə olub, aradan çıxmağa daha çox fədakarlıq göstərəcəklər. Bunu misal olaraq, 2003-cü il 15-16 oktyabr iğtişaşlarına cəhd zamanı İsa Qəmbərin, 2005-ci Qələbə meydanında polislə qarşıdurma zamanı Ə.Kərimlinin mühafizəçilərinin köməyini gözləmədən, aradan çıxmalarını göstərmək olar. 1990-cı il 20 Yanvar faciəsi zamanı da insanları meydanlara səsləyən İ.Qəmbər, Ə.Kərimli, N.Pənahlı, İ.Həmidov, A.Hacılı sovet qoşunlarının şəhərə soxulduqlarını görüncə, dabanlarına tüpürüb qaçmağa üstünlük verdilər. Bu baxımdan da, onların heç biri cüzi belə zərər görmədilər. Halbuki insanları qırğına, məhv olmağa onlar vermişdilər. Sonradan bəlli oldu ki, 20 yanvar gecəsi İ.Qəmbər Yusif Səmədoğlunun evində istirahət edirmiş. Ə.Kərimli isə doğulduğu Saatlı rayonunun Azadkənd kəndində gizlənirmiş.

Bir sözlə, müxalifət qaranlıq keçmişə malikdir. Həm də nəzərə almaq lazımdır ki, müxalifət başbilənləri erməni lobbisi və anti-Azərbaycan dairələrlə geniş əməkdaşlıq edirlər. Müsavat partiyasının keçmiş başqanı İsa Qəmbərin Ermənistan Ümummilli Hərəkatı ilə qarşılıqlı əməkdaşlıq haqqında bəyannamə imzalaması, Ə.Kərimlinin Corc Sorosun Gürcüstan nümayəndəsi ilə əməkdaşlıq haqqında razılaşma əldə etməsi deyilənlərə sübut ola bilər. Artıq sübut olunub ki, Corc Sorosun ayırdığı pullar hesabına doymuş məhlula çevrilən AXCP və Müsavat rəhbərliyi əməllərində və fəaliyyətlərində dəyişiklik etmək niyyətindədirlər. Hətta sabah Ə.Kərimli müsyöyə, Arif Hacılı isə misterə çevrilsə, təəccüblü görünməyəcək. Çünki ağaları pul qarşılığında onları Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı çıxmağa məcbur edirsə, müraciət formasında yeniliklərin edilməsi gözlənilərdir.

**İ.ƏLİYEV**

# "Rəhim Qazıyev, adam bu qədər ləyaqətsiz, qorxaq, nakişi olmaz!"

## Etibar Hüseynov: "Əslində, o başına qoyduğun papaq da papaq deyil, sən papağın dəyərini Şuşada qoyub gəlmisən, ona görə də, o, bir əski parçası, cındırdır"

***"Əslinə qalanda, adını da utanmazcasına "Azərbaycan Xalq Hərəkatı" qoyduqları yığıncağın son iclasında baş verən biabırçılıqdan sonra, özünə hörmət edən kişi və ya xanım bir də ora ayaq basmağı özünə rəva bilməzdi". Bu barədə tanınmış jurnalist, ARB telekanalında "Sitatın sonu" verilişinin aparıcısı Etibar Hüseynov facebook səhifəsində yazıb. Onun sözlərinə görə, baş verənlərə baxmayaraq, bunu özlərinə rəva görənlər oldu: "...Və mən onları qınamıram. Çünki oraya da getməyəndən sonra, bu şəxslər nəyə lazımdır, kimin yanına düşəsidilər ki? Odur ki, bir-birinə "gəda", "şərəfsiz", "eşşək kimi anqırma" deyib, var-yox söyüşü edə-edə yenə də yığışmaq qərarına gəldilər guya ki..."***

### "Rəhim Qazıyev! Mən səni daha bu qədər də həyasız və mənəviyyatsız sanmırdım. Adamın üzü nə qədər padoş olarmış?"

E.Hüseynov həmin şəxslərin bundan sonra üz-üzə gələcəklərinə təəccüb etdiyini bildirib: "İndi mənə çatmır ki, Rəhim Qazıyev "gəda" deyib, var-yoxuna söydüyü, eynən də artıqlamasıyla cavabını aldığı bir şəxslə, İsgəndər Həmidov isə "eşşək kimi anqırma" dediyi Tural Abbaslıyla yenidən necə üz-üzə gələcək axı? Rəhim Qazıyev!




Mən səni daha bu qədər də həyasız və mənəviyyatsız sanmırdım. Adamın üzü nə qədər padoş olarmış?"

Jurnalist ittihamına davam edərək qeyd edib ki, beləleri canlı yayıma çıxıb söyüş söyərkən, düşünmürlər ki, onları kənardan qadın və uşaqlar da izləyə bilərlər. "Başına papaq qoyub guya ki, ağsaqqallıq edirsən" deyə yazan E.Hüseynov əlavə edib: "Amma canlı yayım kameraların qarşısında uşaq, qadın, yaşlı - fərqinə varmadan təhqir, söyüş yağdırırsan. Əslində o başına qoyduğun papaq da papaq deyil, sən papağın dəyərini Şuşada qoyub gəlmisən, ona görə də o, bir əski parçası, cındırdır. Sitatın sonu".

### "Rəhim, yeri gəlmişkən, Əvəzə de, "Xural" redaksiyasında sənin pişiyini ağaca dırmaşdırıb, xoruzunu qoltuğuna verdiyim debatın kasetini versin",

Sonda P.S. ilə müraciətini davam etdirən jurnalist "Xural"ın baş redaktoru, hazırda "Qaynar qazan" layihəsi ilə gündəmdə qalmağa çalışan Ə.Zeynallıya da Rəhim Qazıyev vasitəsi ilə ismarıc yollayıb. "Rəhim, yeri gəlmişkən, Əvəzə de, "Xural" redaksiyasında sənin pişiyini ağaca dırmaşdırıb, xoruzunu qoltuğuna verdiyim debatın kasetini versin" deyə xatırladan E.Hüseynov R.Qazıyevi qorxaq adlandırıb: "12 ildir ki, qorxundan üzə çıxmırsan. Adam bu qədər ləyaqətsiz, qorxaq, nakişi olmaz. Və bir də Rəhim, yadında saxla ki, artıq 92-ci il deyil ki, böyründə 5-6 avtomatlı pəzəvəngin olduğuna görə, onun-bunun üstünə hücum edib, xoruzlanasan. Getdi o günlər, çoxdan getdi. Ona görə də, bu qoca vaxtında onun-bunun üstünə çox da qışqırıb, var-yox söyüşü söyərək dartınma. Bir gün vurub murdar edəcəklər. Camaatı zibilə salma..."

**Rövşən Rəsulov**

# İt hürər, karvan keçər

## Və yaxud "siyasi mühacirlər," indi hürsələr də, sonda xalqımız qarşısında diz çökəcəklər

Avropaya sığınıb Azərbaycana qarşı qarayaxma kampaniyalarını davam etdirən "siyasi mühacirlər" üçün, hətta milli maraqlarımızı düşmən erməniyə satmaqla bir daha mənəviyyatsızlıqlarını nümayiş etdirməkdədirlər. Bu, o əxlaqsız və xəyanətkarlardır ki, aldıqları qəpik-quruşa görə, hətta ata-ana, bacı-qardaşa məhəbbətinin nə olduğunu bilmirlər. Çünki ermənilər tərərəfindən təlimatlanaraq, idarə olunurlar. Bax, bədbəxtçilik budur. Çünki bu "mühacirlər"in söyüş siyasəti əndazəni aşıb. Vətənə, Vətənin övladlarına qarşı küçə söyüşləri yağdırmaqla məşğul olan Orduxan Teymurxan, Vidadi İsgəndərli, Məhəmməd Mirzəli, Tural Sadıqlı, Qurban Məmmədovun bir-birlərini ifşa etmələrinə dair mövcud faktlar var. Bu şəxslər Azərbaycana qarşı ermənilərlə çiyin-çiyinə vuruşan adamlardır... Onların milliyyəti azərbaycanlı ola bilər. Amma O.Teymurxan, T.Sadıqlı, M.Mirzəli, V.İsgəndərli və digərləri pul, var-dövlət toplamaq həvəsi milli kimliklərini unutmuş mənəviyyatsızlar, satqınlardır.

### Siyavuş Novruzov: "O "mühacirlər" Avropada küçə süpürməklə məşğuldurlar"

Avropada "siyasi mühacir" adı altında yaşayanların satqın, əxlaqsız adlandıraran YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov onların Avropada küçə süpürməklə məşğul olduğunu bildirib: "Hamımız yaxşı bilirik ki, anti-Azərbaycan dairələrin ölkəmizdə reallaşdırılan yerli və beynəlxalq əhəmiyyətli tədbirlər ərəfəsində "sapı özümüzdən olan baltaları" tora salaraq, öz çirkin və məkrli oyunlarına alət edərək, respublikamızı hədəfə alması uzun illərdir ki, "ənənə" halını alıb. Anti-Azərbaycan dairələrin, erməni lobbisinin və onlarla işbirliyində olan milli satqınların- müxtəlif bəhanələrlə Qərbin ayrı-ayrı ölkələrində məskunlaşaraq zibilxanalarda küllənən orduxanların, turalların, məhəmmədlərin, rafayillərin, eləcə də, AXCP sədri Ə.Kərimlinin, "Milli Şura"nın rəhbəri C.Həsənlinin və onların tör-töküntülərinin, "yaldaşlar"ının el arasında deyildiyi kimi, "fısları yatacaq". Erməni dəyirmanına su tökən Vətən, millət dönüklərinin mənəviyyatsız, namərd əməllərinə nə ad vermək olar? Ölkəsinə, millətinə, şər-böhtan, təhqir yağdıran bu satqın "söyüş makinaları" cəmiyyətimizin böyük təpkisi və ictimai qınağına tuş olduqları üçün daha da aqressivləşiblər desək, yanılmarıq."



### Tənzilə Rüstəmxanlı: "Söyüş söymək əxlaqsızlıqdan başqa bir şey deyil"

"Azəri-Türk" Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı bildirib ki, "siyasi mühacir" adı ilə xaricdə yaşayan və erməni qüvvələri tərəfindən idarə olunan xəyanətkar ünsürlər heç vaxt milli maraqların nə demək olduğunu anlamırlar: "Dünyanın harasında yaşayırsan-yaşa, kim olursan ol, öz dövlətinə pislik edib, əleyhinə təbliğat aparmaq erməni dəyirmanına su tökməkdir. Ermənistanda qoyub gəldiyimiz dədə-baba torpaqlarımız var. Ordan köç edəndə, ermənilər bizim gəncləri və körpələri dəmir boruya salıb, ağzını qaynaqlayıb boğaraq öldürüblər."

T.Rüstəmxanlı onu da bildirir ki, Avropada tərbiyəsizliklər edərək, milli-əxlaqi dəyərlərimizi ayaq altına atanlar, dövlətçilik maraqlarımızı erməni lobbisinin pullarına satanlar, eləcə də, onları müdafiə edənlər heç bir siyasi səmərə əldə edə bilməyiblər. Bundan sonra da buna nail ola bilməyəcəklər, daha çox Azərbaycan xalqının nifrətini qazanacaqlar.

### Sərdar Cəlaloğlu: "Siyasi mühacir" adı altında siyasi sabitliyi pozmağı mənəvi terror adlandırıram, həm də siyasi xuliqanlıq"

"Siyasi mühacirlər"in söyüş kampaniyası aparmalarından danışan Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu təəssüflə qeyd edib ki, siyasəti anlamayan, xarici qüvvələrə nökərçilik edənlər siyasətə qoşulurlar: "Xüsusən, xaricdə yaşayan "siyasi mühacir"ləri nəzərdə tuturam. Onların bir çoxu Azərbaycanda fəal siyasi mübarizə prosesində olmayıblar. Baxın, "siyasi mühacirlər" də var, qeyri-siyasi mühacirlər də. Onlar tamamilə fərqli, təhqir və küçə səviyyəsində mübarizə aparırlar. Amma kimlər ki, siyasi proseslərdən keçib, çıxışlarında bu cür qeyri-siyasi və etik normaları pozan nüanslar yoxdur. Ümumiyyətlə, təhqir, təkcə siyasi münasibətlərdə deyil, şəxsi münasibətlərdə də yolverilməzdir. Şərəf və ləyaqətin qorunması beynəlxalq hüquq normasıdır, ölkə konstitusiyası ilə müdafiə olunur".

S.Cəlaloğlu onu da bildirib ki, erməni lobbisinin təsiri altında olan bu şəxslər öz mövqelərini də aydınlaşdıra bilməyiblər: "Özü demokrat deyil, "mən demokratam" deyir, həm də qarşısındakının şərəf və ləyaqətini alçaldır. Sən özün əgər beynəlxalq hüquq normalarına zidd fəaliyyət göstərirsənsə, heç vaxt deyə bilməzsən ki, "mən hüquqlar uğrunda mübarizə aparıram". Birinci hüququ elə onun özü pozur. Bu baxımdan, onlar bəzi şeyləri qarışdırırlar. Çox ləyaqətsiz və aşağı səviyyəli sözlərdən istifadə edirlər. Adını da qoyurlar "mübarizə". Söyüş söymək nə vaxtdan siyasi mübarizə üsulu olub? Mən bunu həm mənəvi terror adlandırıram, həm də siyasi xuliqanlıq."

### Yalançı vətənpərvərlərin başında AXCP sədri Əli Kərimli və onun "çetesi" dayanır

Onu da vurğulamaq lazımdır ki, Azərbaycanın daxilindəki satqınlar da onlardan geri qalmırlar. Daxili satqınlar "siyasi mühacirlər"in hakimiyyət və xalqı təhqir edən videolarını yayır, onlara tam dəstək olurlar. "Söyüş qrupunun" başında kimin dayandığı da bəllidir - bu AXCP sədri Ə.Kərimli və onun "çetesi"dir. Bu, o Ə.Kərimlidir ki, qrant almaq üçün illər boyu satılıb və satıb. M.Mirzəli də bu faktı təsdiqləyərək bildirir ki, AXCP sədri Ə.Kərimli Azərbaycan hakimiyyəti əleyhinə müxtəlif layihələrin həyata keçirməyimizi tapşırıb və buna görə də, ödənişlər almışıq.

Belə olan halda, ay satqın, cinayətkar və əxlaqsız Ə.Kərimli, hansı üzlə bu torpaqda yaşayırsan? Ancaq "it hürər, karvan keçər" məsəlinə boş yanaşmaq da olmaz. Beləleri qanun qarşısında cəzalarını almalıdırlar.

**Rəfiqə HÜSEYNOVA**

# Azərbaycan dövlət siyasətində genderə münasibətin yeri

***Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi qadın siyasəti bir neçə mühüm istiqaməti ehtiva edirdi. İlk növbədə, o, qadınların hüquqi statusunun təkmilləşdirilməsini, gender bərabərliyinin hüquqi aspektlərinin əməli surətdə təmin olunmasını nəzərdə tuturdu. İkincisi, bu siyasət qadınların sosial durumunun yaxşılaşdırılmasını, onların keyfiyyətli təhsillə təmin olunmasını, cəmiyyətdə ictimai mövqelərinin möhkəmləndirilməsini, sosial hüquqlarının hərtərəfli tərzdə həyata keçirilməsini ehtimal edirdi. Üçüncüsü, qadınların iqtisadi fəaliyyətlərinin təşviqi üçün kompleks addımlar atılırdı. Qadın sahibkarlığının stimullaşdırılması, qadınların xalq təsərrüfatının müxtəlif sahələrində özlərini təsdiq etmələri üçün şəraitin yaradılması bu qəbildən idi. Dördüncüsü, həyata keçirilən tədbirlər qadınların siyasi həyatda daha fəal iştirakını, vətəndaş cəmiyyətinin qurumlarının işinə canlı surətdə qatılmasını dəstəkləməli idi. Beşincisi, aparılan siyasət qadınların mədəni yüksəlişini nəzərdə tuturdu.***

Ulu Öndərin 1990-cı illərin ortaları və ikinci yarısında hüquqi dövlət quruculuğu çərçivəsində Azərbaycan qadınının problemlərinin institusional qaydada həlli istiqamətində atdığı addımlar sırasında 14 yanvar 1998-ci il tarixli Fərman və Sərəncamı xüsusi yer tutur. Gender siyasətinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 1998-ci il yanvar tarixli Fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı. Tibb elmləri doktoru, professor Zəhra Quliyeva bu qurumun sədri təyin olundu. Yeri gəlmişkən, bu komitə, MDB məkanında qadın problemlərinin vahid mərkəzdən idarə olunduğu ilk dövlət qurumu idi.

Prezidentin elə həmin gün verilmiş və "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" adlanan digər Sərəncamı ilə Nazirlər Kabinetinə ölkənin siyasi, sosial, iqtisadi və mədəni həyatında qadınların rolunu artırmaq məqsədi ilə müvafiq təkliflər hazırlamaq tapşırıldı. Faktiki olaraq, bu sənədlə Ulu Öndər hökumətin yaxın və orta perspektivdə ləri müəyyən edilmişdi. Komitənin əsas vəzifələri aşağıdakı qaydada müəyyən edilmişdi:

* "qadınlarla iş sahəsində cəmiyyətin demokratik inkişafı tələblərinə cavab verən Milli Siyasətin həyata keçirmək;
* qadınların qüvvə və bacarıqlarının, yaradıcılıq potensialının milli dövlət quruculuğunun, suverenliyin möhkəmləndirilməsinə, Azərbaycanın iqtisadi və sosial inkişafı məsələlərinin həllinə, ölkədə həyata keçirilən islahatlar və proqramların gerçəkləşdirilməsinə səfərbər etmək;
* qadınların yüksək sosial və mədəni intellektual inkişafını təmin edən bütün fəaliyyət sahələrini istiqamətləndirmək;
* qadınların sosial problemlərinin həlli, hüquqlarının müdafiəsi, müxtəlif peşələrə yiyələnməsi, yenidən hazırlanması və ixtisaslarının artırılması, işlə təmin olunması sahəsində əlaqədar təşkilatlarla birgə tədbirlər görmək;
* beynəlxalq hüquq sənədlərində əksini tapmış, qadınların hüquqlarının müdafiəsinə yönəlmiş tədbirləri həyata keçirmək;
* qadınların vəziyyəti və onların sosial-iqtisadi problemlərinə dair illik məruzələr hazırlamaq;
* Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər vəzifələri həyata keçirmək;

"Əsasnamə"də nəinki komitənin vəzifələri ətraflı şərh olunurdu, habelə, yetərincə geniş hüquqları da sadalanırdı, sözügedən quruma istər ölkə daxili, istərsə də xarici fəaliyyətlə bağlı sanballı səlahiyyətləri verilmişdi. O öz səlahiyyətləri daxilində dövlət və qeyri-dövlət orqanlarından, müəssisə və təşkilatlardan qanunvericilikdə müəyyən edilmiş qaydada məlumatları və sənədləri sorğu etmək, xarici ölkələrin hökumət və qeyri-hökumət təşkilatlarına, şirkətlərinə müraciət etmək, beynəlxalq qadın təşkilatlarının keçirdiyi tədbirlərdə iştirak etmək, qadınların əmək məşğulluq, təhsil, sosial müdafiə, bədən tərbiyəsi və idman problemlərinin həllinə yönəlmiş dövlət proqramlarının işlənib- hazırlanmasında və həyata keçirilməsində iştirak etmək, ümumbəşəri və milli dəyərlərə, demokratik cəmiyyətin qurulması yo-




Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*


sözügedən sferada, ilk növbədə, həll etməli olacağı vəzifələri müəyyən edirdi. Yuxarıda qeyd etdiyimiz, Heydər Əliyevin qadın siyasətinin prioritet istiqamətlərinə müvafiq olaraq, Sərəncamda sözügedən siyasətin əsaslarının, habelə, qadınların dövlət orqanlarının işində, ölkənin ictimai həyatında, sahibkarlıq sahələrində fəaliyyətinə, onların yeni ixtisaslara yiyələnmələrinə, yenidən hazırlığına və ixtisaslarının artırılmasına, qadınların əmək hüquqlarının həyata keçirilməsinə, onların əməyinin, həyat və sağlamlıqlarının müdafiəsinin analıq funksiyaları nəzərə alınmaqla, təmin edilməsinə qaçqın və məcburi köçkün qadınların sosial müdafiəsinin gücləndirilməsinə, beynəlxalq qadın təşkilatları və respublikada fəaliyyət göstərən qeyri-dövlət qadın cəmiyyətləri ilə dövlət strukturlarının qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsinə dair tədbirlər işlənib-hazırlanması planlaşdırılırdı.

Heydər Əliyevin 20 fevral 1998-ci il tarixli Fərmanı ilə təsdiq etdiyi "Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də bu qurumun son dərəcə geniş vəzifə-

* qadın təşkilatlarına, qadın federasiyalarının və qadın birliklərinin fəaliyyətini əlaqələndirmək;
* beynəlxalq qadın təşkilatları və respublikada fəaliyyət göstərən qeyri-dövlət qadın cəmiyyətləri ilə dövlət strukturlarının qarşılıqlı əlaqələrinin inkişaf etdirilməsi üçün tədbirlər görmək;
* qaçqın və məcburi köçkün qadınların, habelə, aztəminatlı ailələrdəki qadınların sosial problemlərini öyrənmək, onların həlli üçün müvafiq dövlət orqanları qarşısında məsələlər qaldırmaq;
* qadınlara münasibətdə dövlət siyasətinin əsas istiqamətlərinə dair təkliflər işləyib-hazırlamaq;
* Komitənin səlahiyyətlərinə aid məsələlərlə bağlı Azərbaycan Respublikasına gələn nümayəndələri müəyyən olunmuş qaydada qəbul etmək və xarici dövlətlərə nümayəndə göndərmək;
*Komitənin əməkdaşlarının sosial müdafiəsi, əmək və yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlər həyata keçirmək;
* Komitə sisteminin xüsusi fərqlənmiş işçilərinin müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının fəxri adlarına və dövlət mükafatlarına təqdim etmək;

lunda qarşıda duran məsələlərə dair qadınların diskussiya klublarını təşkil etmək, qadınlar üçün yaradıcı mühitin formalaşdırılmasına yardım göstərmək, qadınlara idarətmə, bazar iqtisadiyyatının əsasları, istehsalatın səmərəli təşkili, sahibkarlıq və fermerlik məsələlərinə dair məlumat vermək üçün müvafiq tədbirlər görmək, sahibkarlıqla məşğul olmaq istəyənlərə metodik məsləhətlərin verilməsində iştirak etmək, istehsalatda işləyən qadınların hüquqlarının qorunması üçün müvafiq orqanlarla birlikdə tədbirlər görmək, lazım gəldikdə, onların hüquqlarını pozan vəzifəli şəxslər haqqında tədbir görmək üçün müvafiq orqanlar qarşısında vəsadət qaldırmaq, gənc ailələrə sosial-psixoloji problemlərin həllində yardım göstərmək, ailələrin dağılması səbəblərini təhlil etmək və digər hüquqlara malik idi. S.Abbasova yazır: "Göründüyü kimi, komitə, əvvəla, ölkə qadınlarının ictimai-siyasi, sosial-iqtisadi və mədəni yaşam və fəaliyyətlərini koordinasiya edəcək və yönləndirəcək, ikincisi, artıq işlək mexanizm şəklinə gətirilmiş dövlət aparatında önəmli funksiyanı yerinə yetirəcək, üçüncüsü, bu funksiya çərçivəsində qadınların keçid dövründə sosial-siyasi transformasiyasını təmin edəcək, onların psixoloji adaptasiyasına yardım göstərəcək qurum kimi düşünülmüşdü. Əslində, komitənin belə bir geniş fəaliyyət proqramının nəzərdə tutulması Ulu Öndər Heydər Əliyevin qadın problemlərinə nə dərəcədə önəm və diqqət verməsinin göstəricisi olmaqla yanaşı, həmçinin, onun dövlət idarəçiliyinin mahiyyət məqamları haqqında təsəvvür və baxışlarını ifadə edirdi. Bu təsəvvürlərin araşdırılması onların sosial-siyasi səciyyəli olmasından xəbər verir. Heydər Əliyev nəzəriyyəsinə görə, dövlət modernləşmə proseslərinin fəal subyekti və əsas amili olaraq qalırdı, sözügedən qanunda bu cür baxışlar Qadın Problemləri üzrə Dövlət Komitəsinin, faktiki olaraq, nazirlik səlahiyyət və vəzifələrinə malik dövlət orqanı kimi fəaliyyət göstərəcəyini, nəzərdə tutulmasında özünün bariz təzahürünü tapırdı ("Komitə Azərbaycan Respublikasında qadınlara dair dövlət siyasətinin daha mütəşəkkil şəkildə həyata keçirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır"). Sözügedən qurum, əslində, Heydər Əliyev tərəfindən qadınların siyasi, sosial və mədəni cəhətdən istiqamətləndirilməsini və təşkilatlanmasını həyata keçirəcək dövlət idarəçilik mexanizmi kimi düşünülmüşdü.

Öz fəaliyyətində QPDK aşağıdakı strategiyalara əsaslanır: bərabərliyin təmin edilməsi üçün milli mexanizmlərin gücləndirilməsi; cinslər arasında bərabərlik məsələsinin qanunvericiliyə, sosial siyasətə, dövlət proqramlarına və layihələrinə daxil edilməsi; gender əsaslı statistik məlumatların və informasiyanın hazırlanması və yayılması. Komitə yarandığı zaman dörd şöbəsi - Qadın hüquqları və sosial müdafiə (3 nəfər), Beynəlxalq əlaqələr (3 nəfər).

Ümumi şöbə (2 nəfər), Maliyyə-təsərrüfat (3 nəfər) şöbəsi və yeddi nəfər texniki və köməkçi heyəti fəaliyyət göstərirdi. QPDK-nın sədri Prezident tərəfindən təyin olunurdu və ona sədrin birinci müavini və iki sədr müavinləri kömək edirdilər. Heyət işçiləri və proqramlar eyni illik büdcədən maliyyələşirdi və 2003-cü ildə ümumi maliyyə 568,5 milyon AZM idi ki, (bu da ümumi hökumət xərclərinin 0,38%-ni təşkil edirdi).

**Vahid Ömərov,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

# Bakı-Quba yolunun Sumqayıt ərazisində avtomobil aşıb

Bakı-Quba avtomagistralında yol-nəqliyyat hadisəsi baş verib. Hadisə yolun Sumqayıt şəhər ərazisindən keçən hissəsində qeydə alınıb.

Şəhər Yol Polisindən AZƏRTAC-a bildiriblər ki, 10 JP 968 dövlət nömrə nişanlı yük maşını qarşıdan gələn 90-XE-714 dövlət nömrə nişanlı "Mitshubishi Pajero İO" markalı avtomobillə toqquşub. Hadisə nəticəsində "Mitshubishi" aşaraq, yolu bağlayıb. İlkin məlumatlara görə, xəsarət alan olmayıb. Nəqliyyat vasitələrinə ciddi ziyan dəyib. Faktla bağlı şəhər polisində araşdırma başlanıb.

# Yaz allergiyasını yaradan əsas səbəb çiçəklər və ağac tozcuqlarıdır



Yazın gəlişi ilə allergik xəstəliklərin fəallaşması başlayır. Bir çox mövsümi xəstəliklər, burun axması, qaşınma, göz yaşarması və dəri qıcıqlanmaları baş qaldırır.

AZƏRTAC xəbər verir ki, Səhiyyə Nazirliyinin baş allerqoloqu Cəbrayıl Məmmədovun dediyinə görə, bəzi ağacların tozlanması allergiyaya meyilli olanlarda narahatlıq yaradır. Məsələn, fındıq, qızılağac, küknar, tozağacı və bəzən az da olsa tut və çinar ağaclarının tozcuqları havaya daxil olaraq həssas insanlarda allergiya əlamətlərinin baş qaldırmasına səbəb olur: "Havaya yayılan çiçək tozları insanın gözünə, dərisinə, tənəffüs yollarına düşərək allergiyaya meyilli olanlarda müəyyən əlamətlər əmələ gətirir. Allergiya selikli qişaların güclü qaşınması və dəri səpgiləri, ümumi zəiflikə özünü büruzə verir.

Xəstəliyin əsas əlamətləri burun tutulması, nəfəsalmanın çətinləşməsi, selikli qişanın ödemləşməsi, burunda və gözdə qaşınma və asqırmaların artmasıdır. Bəzən polinozlu xəstə 30-40 dəfə asqırmaq məcburiyyətində qalır. Belə allergiyalardan necə qurtulmaq olar?

Həkim-allerqoloqun dediyinə görə, allergiyası olanlar xəstəliyin kəskin dövründə təbiət qoynuna çıxmamalı, xüsusilə küləkli havada bundan daha çox uzaq olmalıdırlar. O, xəstəliyin müalicəsi barədə isə bunları deyib: "Yaz allergiyası mütəmadi təkrar olunanda müayinələr aparılır və xəstəliyin dərəcəsinə görə müalicələr təyin edilir. Mövsümqabağı allergenləri xüsusilə durulaşdırmaq yolu ilə dərmanlar hazırlanır və payızın axırlarından başlayaraq peyvəndi xatırladan iynələr vurulur. Bunun nəticəsində bir müddət sonra xəstə orqanizmində qoruyucu anticisimlər əmələ gəlir".


## ELAN

Biləsuvar rayon Aqrar İslahat Komissiyasının 1997-ci il 20 noyabr tarixli 30 saylı qərarı ilə Baxışov Nurəddin Baxış oğluna verilmiş torpaq sahəsi mülkiyyət hüququnu tanıdan JN-522 nömrəli "Dövlət Aktı" itdiyi üçün etibarsız sayılır.

* * *

"Təmir-Tikinti AzNY" QSC-nin səhmdarlarının nəzərinə!

7 iyun 2019-cu il tarixdə saat 11.00-da "Təmir-Tikinti AzNY" QSC-nin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncaqda aşağıdakı məsələlər müzakirə ediləcəkdir:

1. 2018-ci ilin maliyyə hesabatının təsdiqi.
2. Dividendlərin bölüşdürülməsinə dair.
3. Digər məsələlər.

Ünvan: Bakı şəhəri, Nizami rayonu, O.Vəliyev küçəsi 1.
Əlaqə telefonu: (012) 570-14-27

"Təmir-Tikinti AzNY" QSC-nin
idarə heyətinin sədri: N.İ.Cavadov

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika və texnologiya fakültəsinin IV kurs tələbəsi Ramazanova Aysel İbrahim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya-biologiya fakültəsinin II kurs tələbəsi Məmmədzadə Nigar Malik qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.




# Üç yunan-Roma güləşçimiz qitə birinciliyinin yarımfinal mərhələsinə yüksəlib



Rumınıyanın paytaxtı Buxarestdə keçirilən güləş üzrə Avropa çempionatı davam edir. AZƏRTAC xəbər verir ki, aprelin 12-də yunan-Roma güləşi üzrə yarışlara start verilib. Dünya və Avropa çempionu Eldəniz Əzizli (55 kq) ilk görüşündə serb güləşçini cəmi 1 dəqiqə 54 saniyəyə məğlub edib. Təmsilçimiz 1/4 finalda əsas rəqiblərindən sayılan gürcü idmançıya da heç bir şans tanımayıb və vaxtından əvvəl qələbə qazanaraq yarımfinala yüksəlib.

Çempionatda 63 kiloqram çəki dərəcəsində mübarizə aparan Taleh Məmmədov təsnifat mərhələsində Moldova təmsilçisindən güclü olub. Daha sonra yerli idmançı ilə görüş gərgin idman mübarizəsi şəraitində keçib və yenə sevinən tərəf təmsilçimiz olub. Beləliklə, T.Məmmədov da yarımfinala adlayıb.

İslam Abbasov (87 kq) startda çətinliklə də olsa, alman rəqibinə qalib gəlib. Yığmamızın üzvü səkkizdəbir finalda Olimpiya çempionu ilə üz-üzə gəlib. Ancaq rəqibindən çəkinməyən İ.Abbasov Rusiya təmsilçisini də məyus edərək növbəti mərhələyə vəsiqə qazanıb. Güləşçimiz dörddəbir finalda ermənistanlı dünya və Avropa çempionu ilə üz-üzə gəlib. Qarşılaşmanın əvvəlindən sonuna kimi rəqibindən üstün olan Abbasov parlaq qələbə qazanaraq yarımfinala vəsiqə qazanan üçüncü yunan-Roma güləşçimiz olub.

# Şahmatçımız Gülnar Məmmədova Avropa çempionatında ilk qələbəsini qazanıb



Antalyada qadın şahmatçılar arasında Avropa çempionatının birinci turunun oyunları keçirilib. Çempionatda Azərbaycanı təmsil edən şahmatçılardan yalnız Gülnar Məmmədova birinci turda qələbə qazanıb. Günay Məmmədzadə, Gövhər Beydullayeva, Xəyalə Abdulla isə birinci turu heç-heçə başa vurublar. Digər şahmatçılarımız isə məğlubiyyətə uğrayıblar. Ümumi mükafat fondu 60 min avro olan turnirə aprelin 21-də yekun vurulacaq.

# Harri Keyn üçün mövsüm başa çatıb



İngiltərə Premyer Liqasında mübarizə aparan "Tottenhem" klubu ciddi itki ilə üzləşib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, Çempionlar Liqasının 1/4 final mərhələsinin "Mançester Siti" ilə oyununda zədələnən Harri Keyn üçün mövsüm başa çatıb. Rəqib futbolçu Fabian Delflə mübarizə zamanı zədələnərək oyunu yarımçıq tərk edən 25 yaşlı hücumçunun durumu ciddidir. Qeyd edək ki, İngiltərə millisinin üzvü cari mövsüm Premyer Liqada 28 oyuna 17 qol vurub.

# Burun sındırmağın cəzası 5 milyon oldu



Moskva "Spartak"ı azərbaycanlı futbolçusu Ayaz Quliyevi cəzalandırıb. Qol.az Rusiya mətbuatına istinadən xəbər verir ki, buna səbəb 23 yaşlı yarımmüdafiəçinin ötən gün Moskva küçələrinin birində amerikalı turistlə dalaşması olub. Paytaxt təmsilçisi avtomobillə turistin həyatı üçün təhlükə yaradan, daha sonra isə onun burnunu sındıran futbolçunu əvəzedici komandaya göndərib. Onun ikinci komandada oynamasına da icazə verilməyib. Quliyev orada ancaq məşq edə bilər. Bundan başqa, Ayazın 5 milyon rubl (təqribən 77 min dollar) cərimə olunacağı bildirilib.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**